**EVDƏ QAL, SAĞLAM QAL!**

**Uzaqgörən siyasətiniz sayəsində Azərbaycan çox uğurlar əldə edib!**



Bax 8

**Müdafiə Nazirliyi: "David Tonoyanın Ermənistan ordusu barədə səsləndirdiyi "konsepsiya" absurddur"**



Bax 6




# SƏS

**QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!**

**"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir**

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 095 (6060) **10 iyun** 2020-ci il. **Qiyməti 40 qəpik**

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Operativ Qərargah: Xüsusi karantin rejimi uzadıldı



***A**zərbaycan Respublikası ərazisində yeni nov koronavirus (COVID-19) xəstəliyi ilə bağlı mövcud sanitar-epidemioloji vəziyyət təhlil edilmiş və son günlərdə virusa yoluxma sayı, xəstəliyin yayılma dinamikası nəzərə alınaraq, ölkə üzrə xüsusi...*

Bax 5

## Ermənistan qaz məngənəsində: çıxış yolu yoxdur



Bax 12

***R**əsmi İrəvan Rusiyaya olan bütün ümidlərini demək olar ki, itirib. Belə ki, Kremlin bundan sonra da ermənilərə qəzəbi fonunda onları imkanlar çərçivəsində yedirdəcəyi, üstəlik havayı, yəni çox ucuz qiymətlə yanacaqla da təmin edəcəyi məsələsi də həmin ümidləri tükəndirib. Məhz bu baxımdan, İrəvan indi də Aşqabad və Tehranla danışıqlara başlamaq...*

## "Azərbaycan dövləti əlindən gələni edir ki, biz bu vəziyyətdən az itkilərlə çıxa bilək"




*Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə üç modul tipli xəstəxananın açılışı olub*

Bax 2

## Sevinc Fətəliyeva: Azərbaycan brendi olan "ASAN Xidmət" dünya üçün nümunədir



"**M**əlumdur ki, ölkəmizdə əhalinin həyat səviyyəsinin yüksəldilməsini, vətəndaşların sosial təminatlarının əhatə dairəsinin genişləndirilməsini hədəfləyən kompleks tədbirlər həyata keçirilir. Respublikamızda inklüzivliyin artırılmasına, sosial xidmətlərə əlçatanlığın təmin olunmasına geniş...

Bax 7

## Ölkədaxili uçuşların həyata keçirilməsinə start verilir



"**1** iyul 2020-cil il tarixinə qədər çarter reysləri istisna olmaqla ölkəyə xaricdən olan bütün gediş-gəliş dayandırılır. Lakin, ölkədaxili uçuşların iyunun 15-dən etibarən həyata keçiriləcək". SİA-nın verdiyi məlumata görə, bunu dünən Nazirlər Kabineti yanında Operativ Qərargahın keçirdiyi brifinqdə Nazirlər Kabinetinin Mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov...

Bax 6

## Həbib Nurməhəmmədov amerikalı boksçu ilə sentyabrda döyüşəcək

*Mütləq Döyüş Çempionatının (UFC) çempionu rusiyalı Həbib Nurməhəmmədov və amerikalı Castin Getji arasında döyüş bu ilin sentyabrında keçiriləcək. TASS agentliyi xəbər verir ki, bu barədə rusiyalı döyüşçünün meneceri Rizvan Maqomedov məlumat verib. O, qeyd edib ki, turnirlərin sayı hələ...*



Bax 16

**"Polisə qarşı qara yaxma kampaniyası radikal müxalifətin mətbəxində hazırlanıb"**



Bax 13

**Gizli xəstəlik peyda olub: 979 nəfər ölüb**



Bax 16

**Arman Tatoyan: "Nifrət ritorikası son həddə çatıb və qruplaşan insanlar bir-birlərini ləkələyir"**



Bax 12

# "Azərbaycan dövləti əlindən gələni edir ki, biz bu vəziyyətdən az itkilərlə çıxa bilək"

## *Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə üç modul tipli xəstəxananın açılışı olub*








> *"Görülmüş bütün tədbirlərin mərkəzində məhz Azərbaycan vətəndaşlarının sağlamlığı dayanmışdır və qabaqlayıcı tədbirlər nəticəsində bu gün vəziyyət tam nəzarət altındadır"*

***İyunun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə üç modul tipli xəstəxananın açılışı olub.***

AZƏRTAC xəbər verir ki, bunlar paytaxtın Bilgəh qəsəbəsində, həmçinin Sumqayıt şəhərində və Abşeron rayonunun Saray qəsəbəsində quraşdırılan modul tipli xəstəxana kompleksləridir.

Beləliklə, daha üç modul tipli xəstəxana istifadəyə hazırdır. Bu, COVID-19 pandemiyasının ölkəmizdə yayılması ilə mübarizədə olduqca mühüm əhəmiyyət kəsb edir. Modul tipli xəstəxanaların quraşdırılması ilə ölkənin səhiyyə sisteminin əlavə 2000 çarpayılıq ehtiyatı yaranır. Əsas məqsəd koronavirus xəstələrinin lazımi tibbi xidmətlərlə əhatə olunması üçün vahid idarəetməni və tibbi əlaqələndirməni təmin etməkdir.

Prezident İlham Əliyevə məlumat verildi ki, üç modul tipli xəstəxanadan biri Bilgəh qəsəbəsindəki 28 saylı Bilgəh birləşmiş şəhər xəstəxanasına, digər ikisi isə Sumqayıtdakı 1 saylı şəhər xəstəxanasına və Abşeron rayonunun Saray qəsəbəsindəki xəstəxanaya təhkim olunub. Koronavirus xəstələrinin qəbulu və müalicəsi üçün hər cür şəraitin yaradıldığı, ümumilikdə 100 palata və 200 çarpayı yeri olan üç korpuslu bu xəstəxana kompleksləri mərkəzləşdirilmiş oksigen generator sistemi ilə təchiz olunub. Palatalara ötürülən hava ventilyasiya qurğusu ilə təmizlənir.

Qeyd edək ki, ilk belə xəstəxana mayın 7-də paytaxtda istifadəyə verilib. Daha altı kompleksin isə bölgələrdə inşa edilərək istifadəyə verilməsi nəzərdə tutulur. Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva həkim kollektivi ilə görüşdülər.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı:

-Möhtərəm cənab Prezident, bu gün 28 saylı birləşmiş şəhər xəstəxanasının nəzdindəki modul tipli xəstəxananın açılışında iştirak etdiyinizə görə Sizə bütün həkimlərin adından təşəkkürümüzü bildiririk. Eyni zamanda, bu gün Sumqayıt şəhər 1 saylı xəstəxananın və Abşeron rayonunun Saray qəsəbəsindəki xəstəxananın nəzdində fəaliyyət göstərəcək modul tipli xəstəxanaların da videoformatda açılışı olacaq. Xəstəxanalar haqqında videoçarx nümayiş etdirildi. Dövlətimizin başçısı görüşdə çıxış etdi.

Prezident İlham Əliyevin çıxışı

- Bu gün çox əlamətdar bir gündür. Ölkəmizdə modul tipli üç xəstəxana açılır. Bu xəstəxanalarda koronavirus xəstələri müalicə olunacaq və beləliklə, koronavirusla bağlı mübarizədə növbəti önəmli addım atılır.

Modul tipli birinci xəstəxana bir ay bundan əvvəl, mayın 7-də açılmışdır və hazırda bu xəstəxanaların sayı dördə çatıb. Mən mayın 7-də açılış mərasimində qeyd etdim ki, bu xəstəxanaların sayı 10-a çatmalıdır. Ümid edirəm ki, yaxın gələcəkdə - təxminən ayın sonuna qədər qalan 6 xəstəxana da istifadəyə veriləcəkdir. Beləliklə, bizim əlavə iki min çarpayımız olacaqdır və bu, koronavirusla bağlı mübarizədə imkanlarımızı daha da genişləndirəcək.

Sevindirici hal ondan ibarətdir ki, bu 10 xəstəxananın 4-nü özəl sektor öz vəsaiti hesabına inşa edəcək. Beləliklə, dövlətin üzərində yük bir qədər azalır. Özəl sektorun nümayəndələrinə və eyni zamanda, adi vətəndaşlara koronavirus dövründə göstərdikləri maliyyə dəstəyinə görə təşəkkürümü bildirmək istəyirəm. Bildiyiniz kimi, mənim təşəbbüsümlə Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılıbdır və ilkin olaraq Prezidentin ehtiyat fondundan bu fonda 20 milyon manat vəsait ayrılmışdır. Ancaq bu gün sahibkarlar və adi vətəndaşlar hesabına fonda yığılmış məbləğ 100 milyon manatı ötüb. Bu, bir daha onu göstərir ki, xalqımız çətin dövrdə birləşə, həmrəylik və birlik göstərə bilir. Ona görə mən özəl sektorun bu işlərdə fəal rolunu dəstəkləyirəm.

***Ardı Səh. 3***

# “Azərbaycan dövləti əlindən gələni edir ki, biz bu vəziyyətdən az itkilərlə çıxa bilək”

## *Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə üç modul tipli xəstəxananın açılışı olub*

Əvvəli Səh. 2



Eyni zamanda, ictimai təşkilatlar, ilk növbədə, Heydər Əliyev Fondu və digər ictimai təşkilatlar, sahibkarlar bu dövrdə maddi vəziyyəti aşağı olan insanlara humanitar yardım da göstərmişlər və bu proses davam edir. Amma hər kəs bilir ki, bu mübarizədə, əlbəttə ki, əsas yük Azərbaycan dövlətinin üzərinə düşür. Azərbaycan dövləti əlindən gələni edir ki, biz bu vəziyyətdən az itkilərlə çıxa bilək.

Görülmüş bütün tədbirlərin mərkəzində məhz Azərbaycan vətəndaşlarının sağlamlığı dayanmışdır və qabaqlayıcı tədbirlər nəticəsində bu gün vəziyyət tam nəzarət altındadır. Son 10 gün ərzində yoluxanların sayı artır. Bu da ondan irəli gəlir ki, yumşalma dövründə bəzi vətəndaşlar məsuliyyətsizlik göstərmişlər. Buna baxmayaraq, vəziyyət tam nəzarət altındadır. Bizim xəstəxanalarda kifayət qədər yerlərimiz var, reanimasiya şöbələrimizdə də həmçinin. Eyni zamanda, əlavə iki min çarpayılıq 10 xəstəxanada koronavirus xəstələrinin müalicəsi nəzərdə tutulur. Bu günə qədər hələ ki, buna ehtiyac yoxdur. Ancaq biz bütün addımlarımızı elə atırıq ki, ən kritik vəziyyətə hazır olaq, ən böhranlı vəziyyətdə də bütün xəstələrə tibbi xidmət göstərilsin.

> *“Azərbaycan xalqı həkimlərin fədakarlığına çox yüksək qiymət verir. Mən də bir daha bütün həkimlərə minnətdarlığımı bildirmək istəyirəm. Onlar öz həyatlarını risk altına atırlar. Onlar aylarla öz ailə üzvlərini görə bilmirlər və çox ağır şəraitdə xüsusi geyimlərdə gecə-gündüz xəstələrin yanındadırlar, onların həyatını xilas edirlər. Bizdə ölüm səviyyəsinin çox aşağı olması, ilk növbədə, həkimlərin peşəkarlığı, fədakarlığı hesabınadır”*

Onu da bildirməliyəm, Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, koronavirusa yoluxan bütün xəstələr tibbi müəssisələrdə müalicə alır. Dünya praktikası tam başqadır. Bir çox ölkələrdə xəstəliyi simptomsuz keçirənlər, xəstəliyə düçar olmuş insanlar ev şəraitində müalicə alırlar, onları heç xəstəxanalara da qəbul etmirlər. Əlbəttə ki, bu, onların sağlamlığına təhlükə yaradır. Azərbaycanda koronavirusdan ölənlərin sayının az olmasının səbəblərindən biri də məhz odur ki, yoluxmuş bütün xəstələr tibbi müəssisələrə qəbul edilir və onlara lazımi xidmət göstərilir.

Qabaqlayıcı bütün tədbirlər elə görülüb ki, biz ən çətin vəziyyətə hazır olaq. Bu məqsədlə yeni laboratoriyalar alınıbdır. Hazırda laboratoriyaların sayı 20-dən çoxdur. Koronavirus xəstələrini müalicə etmək üçün bizim ən qabaqcıl xəstəxanalar ayrılıb, onlara təqdim edilib, o cümlədən “Yeni klinika” - bizim ən gözəl, ən müasir xəstəxanamız və digər xəstəxanalar. Bu xəstəxanaların sayı 20-dən çoxdur. Eyni zamanda, hesab edirəm ki, karantin şəraitində qalan vətəndaşlar üçün də dünya miqyasında Azərbaycanda xüsusi şərait yaradılıb. Çünki onlar 4-5 ulduzlu otellərdə, eyni zamanda, Atletlər Kəndində yerləşdirilir və karantin rejimində olan ən çox insan Atletlər Kəndində yerləşdirilibdir. Minlərlə insan xaricdən təxliyə edilib və bu proses davam etdirilir, təbii ki, qrafik üzrə. Orada da bütün işlər mütəşəkkil qaydada görülməlidir. Bildiyiniz kimi, xüsusi portal yaradılıb və Azərbaycana qayıtmaq istəyən vətəndaşlar o portalda qeydiyyatdan keçirlər, növbəlilik prinsipi əsasında dövlət hesabına ölkəmizə gətirilirlər. Yəni, bütün şərait yaradılıb ki, Azərbaycan vətəndaşları dövlət tərəfindən qayğı ilə, diqqətlə əhatə olunsun. Hesab edirəm ki, bu günə qədər görülmüş işlər və işlərin nəticələri məhz bu siyasətin təzahürünü əks etdirir. Təsadüfi deyil ki, beynəlxalq aləmdə Azərbaycanın koronavirusla bağlı mübarizə metodları təqdirlə qarşılanır. Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı bu sahədə nümunəvi ölkə adlandırıb, özü də bir neçə dəfə. Həm pandemiyanın ilk mərhələsində ki, biz operativ tədbirlər gördük, bütün lazımi məhdudlaşdırıcı addımları atdıq, həm də ondan sonrakı dövrdə və bu yaxınlarda yenə də Ümumdünya Səhiyyə Təşkilatının nümayəndələri Azərbaycanda görülmüş işləri çox yüksək qiymətləndirmişlər.



Bizim əsas vəzifəmiz insanları bu xəstəlikdən qorumaqdır, onların həyatını xilas etməkdir. Əlbəttə ki, itkilərimiz də olub, amma bəzi ölkələrlə müqayisədə Azərbaycandakı vəziyyət qat-qat yaxşıdır. Bu, onu göstərir ki, düşünülmüş siyasət, xalqla iqtidar arasında birlik, dövlətin addımlarına yüksək inam olan yerdə nəticə də olur. Bu günə qədər mən hər gün yüzlərlə vətəndaşdan məktub alıram. Bu məktublarda görülmüş işlərə yüksək qiymət verilir. Bu məktubların çox kiçik bir hissəsi mətbuatda dərc edilir. Ancaq o məktublar göstərir ki, bütün rayonlardan, bütün kateqoriyalara aid olan insanlardan bu məktublar gəlir və insanlar minnətdarlıqlarını bildirirlər. Eyni zamanda, məhdudlaşdırıcı dövr ərzində çətin vəziyyətə düşmüş vətəndaşların maddi məsələləri də həll olunubdur və Azərbaycan burada da liderlik göstəribdir. Ümumiyyətlə, mübarizəyə və pandemiyadan əziyyət çəkən işsiz adamlara, aztəminatlı təbəqəyə aid olan insanlara, sahibkarlara və bütün işləri təşkil etmək üçün 3,5 milyard manat vəsait nəzərdə tutulubdur və bu vəsait xərclənir. Tibbi avadanlığın, dərman preparatlarının alınması - bütün bu işlərə dövlət böyük vəsait ayırdı.

Eyni zamanda, mən bu işləri təşkil edən qurumların fəaliyyətini də yüksək qiymətləndirirəm. Operativ Qərargah, İcbari Tibbi Sığorta Agentliyi və TƏBİB fəal işləyirlər. Xüsusilə həkimlərin fəaliyyətini, fədakarlığını qiymətləndirmək istərdim. Azərbaycan xalqı həkimlərin fədakarlığına çox yüksək qiymət verir. Mən də bir daha bütün həkimlərə minnətdarlığımı bildirmək istəyirəm. Onlar öz həyatlarını risk altına atırlar. Onlar aylarla öz ailə üzvlərini görə bilmirlər və çox ağır şəraitdə xüsusi geyimlərdə gecə-gündüz xəstələrin yanındadırlar, onların həyatını xilas edirlər. Bizdə ölüm səviyyəsinin çox aşağı olması, ilk növbədə, həkimlərin peşəkarlığı, fədakarlığı hesabınadır.

Ardı Səh. 4

# “Azərbaycan dövləti əlindən gələni edir ki, biz bu vəziyyətdən az itkilərlə çıxa bilək”

## *Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə üç modul tipli xəstəxananın açılışı olub*

Əvvəli Səh. 3

Ona görə dünyada baş vermiş hadisələrə və bir çox inkişaf etmiş ölkələrdə koronavirusla bağlı acınacaqlı vəziyyətə baxdıqda bir daha görürük ki, Azərbaycan bu sahədə də öz modelini ortaya qoyub və bütün hədəflərə ardıcıllıqla, məqsədyönlü şəkildə çata bilib. Əlbəttə ki, mən bizi başqa ölkələrlə müqayisə etmək fikrində deyiləm. Ancaq dünyada hər şey müqayisə ilə ölçülür. Misal üçün bu günə qədər Azərbaycanda yoluxanların sayı 8 minə qədərdir, 350 mindən çox test keçirilib və adambaşına testlərin sayına görə biz qabaqcıl yerlərdəyik. Ancaq qonşu Ermənistanda yoluxanların sayı 13 mini ötüb və testlərin sayı bizdəkindən 5-6 dəfə azdır. Nəzərə alsaq ki, Ermənistan əhalisi Azərbaycan əhalisindən 5 dəfə azdır, mənzərə tam aydındır. Əgər mən gündə yüzlərlə təşəkkür məktubu alıramsa, Ermənistan rəhbərliyi yüzlərlə lənətlə dolu çağırışlar eşidir.

İnkişaf etmiş ölkələrlə digər müqayisəni də apara bilərəm. Məsələn, bir neçə inkişaf etmiş ölkə var ki, orada ölənlərin sayı bizdə yoluxanların sayından çoxdur. O inkişaf etmiş ölkələr ki, orada səhiyyə sistemi həmişə etalon, bir nümunə hesab edilib. Bəzi inkişaf etmiş ölkələrdə, o ölkələrdə ki, əhalisi bizimlə təxminən eynidir, on minə yaxın insan ölüb. Bizdə isə sadəcə yoluxanların sayı 8 minə qədərdir. Ona görə bizdəki yanaşma, - hər bir yoluxmuş insana tibbi xidmət göstərilir, - ən düzgün, ən humanist yanaşmadır və bu istiqamətdə əlavə addımlar atılacaq.

Biz, eyni zamanda, sənaye imkanlarımızdan da istifadə etdik. Qısa müddət ərzində tibbi maska müəssisələri fəaliyyətə başladı. İki müəssisə indi fəaliyyətdədir. Dezinfeksiya vasitələri artıq Azərbaycanda istehsal olunur. Eyni zamanda, Azərbaycanda həkimlər üçün xüsusi geyimlər, kombinezonlar istehsal olunur. Həmçinin biz tibbi maskaları xaricdən də idxal edirik. Çünki tələbat artır və tələbatın artması bilavasitə məhdudlaşdırıcı tədbirlərlə bağlıdır. Biz müşahidə edirik ki, vətəndaşlar son günlər tibbi maskalardan daha çox istifadə edirlər. Bir daha demək istəyirəm ki, bu, qapalı şəraitdə mütləqdir. Mən bütün qapalı yerlərdə tibbi maskadan istifadə edirəm və hər kəs də qapalı şəraitdə tibbi maskadan istifadə etməlidir - ictimai nəqliyyatda, ofislərdə, alış-veriş mərkəzlərində. Açıq havada bu, tövsiyə olunur, əgər yaxın təmas yoxdursa, maskadan istifadə etməmək də olar. Ancaq qapalı şəraitdə hər kəs mütləq maskadan istifadə etsin, hər kəs məsafə saxlasın və şəxsi gigiyenaya fikir versin. Çünki cəmi bu üç amil, - bunu həkimlər, müxtəlif ictimai xadimlər bəlkə də min dəfə deyiblər, - gərək nəzərə alınsın: tibbi maska, bir yarım-iki metr məsafə və dezinfeksiya vasitələri. Bu amillər insanları həkimlərin yekdil rəyinə görə, 95 faiz qoruyur. Ona görə vətəndaşlardan artıq dərəcədə xahiş edirəm ki, bu çox sadə qaydalara əməl etsinlər və bilsinlər ki, koronavirus yoxa çıxmayıb.

İndi bütün ölkələrdə yumşaldıcı addımlar atılır, o cümlədən Azərbaycanda. Buna baxmayaraq, mən onu da demişdim ki, əgər görsək xəstələrin sayı kəskin artır, yenə də məhdudlaşdıracağıq. Bu məhdudlaşdırıcı addımların səbəbi də bəllidir. Bəzi insanlar məsuliyyətsizlik göstərirlər. Ancaq bütövlükdə deyə bilərəm ki, Azərbaycan cəmiyyəti çox böyük məsuliyyət, nizam-intizam göstərir. Şənbə-bazar günlərində xüsusi karantin rejimi bunu göstərdi, qayda pozuntuları çox cüzi sayda olmuşdur. Bu, onu göstərir ki, vətəndaşlar məsuliyyəti dərk edirlər. Ancaq hər bir vətəndaş bunu dərk etməlidir. Çünki bir məsuliyyətsiz vətəndaş yüz nəfəri yoluxdura bilir, onların və özünün həyatını risk altına ata bilir.

Koronavirus yoxa çıxmayıb və yoxa çıxmayacaq. Həkimlərin ümumi rəyinə görə, peyvənd icad olunana qədər insanlar bu xəstəlikdən əziyyət çəkəcəklər. Ona görə biz də hazır olmalıyıq ki, yeni davranış qaydaları çərçivəsində yaşayaq. İndi bunun başqa yolu yoxdur. Bir daha demək istəyirəm ki, bu davranış qaydaları insanlara o qədər də əziyyət vermir. Sadəcə ediyim qaydalara əməl etmək və daha məsuliyyətli olmaq lazımdır.

Bu müddət ərzində Azərbaycan dövləti çox böyük məsuliyyət göstərib, ilk növbədə, ölkə daxilində. Çünki iki seçim var idi - ya iqtisadiyyatı xilas etmək, ya da insanların sağlamlığını. Şəxsən mənim üçün birmənalı qaydada tərəddüdsüz insanların sağlamlığı həmişə birinci yerdə olubdur, o cümlədən pandemiya dövründə. Ona görə biz şüurlu şəkildə, bunun iqtisadi fəallığımıza mənfi təsir göstərəcəyini bilərək məhdudlaşdırıcı addımlara getdik. Mən bildirmişdim ki, keçən ay əldə edilmiş nəticələrdə kiçik də olsa, artım var - 0,2 faiz. Ancaq təxmin edirdim ki, beş ayın yekunları artıq tənəzzülü əks etdirəcək, belə də oldu. Mənə verilən məlumata görə, ümumi daxili məhsul beş ayda 1,7 faiz aşağı düşüb. Ancaq yenə də bir çox inkişaf etmiş ölkələrlə müqayisədə bizdəki tənəzzül çox kiçikhəcmlidir. Bununla paralel olaraq bildirməliyəm ki, sənaye istehsalı bir qədər artıb. Amma qeyri-neft sektorunda sənaye 14 faiz artıb. Kənd təsərrüfatı 3,6 faiz artıb. İnsanların orta əməkhaqqı 740 manata yaxınlaşıb. Bu, təqribən 430 dollardan çoxdur. İnflyasiya 3 faizdən aşağıdır, yəni, proqnozlaşdırılmış səviyyədədir.

Ona görə bütövlükdə baxanda bizim iqtisadi fəaliyyətimiz də bu müddət ərzində çox uğurlu olub. Ancaq iqtisadiyyat tənəzzülə uğrasa da, bərpa ediləcəkdir, insanların həyatını isə bərpa etmək mümkün deyil. İnsanların həyatı qiymətsizdir. Ona görə bu günə qədər və bundan sonra bizim üçün əsas amil insanların təhlükəsizliyi, sağlamlığıdır. Artan dinamika, xəstələrin, yoluxanların artan dinamikası göstərir ki, yumşalma tendensiyası buna gətirib çıxarıb. Amma yenə də vəziyyət nəzarət altındadır. Burada əsas amil yoluxanların və sağalanların arasında olan nisbətdir. Bu günə qədər nisbət elədir ki, bizim səhiyyə sistemimiz bunu qəbul edə bilir. Bir çox ölkələrdə ölüm hallarının kütləvi xarakter almasının əsas səbəbi odur ki, o ölkələrdə səhiyyə sistemi çöküb. Yəni, xəstələri qəbul edə bilmirlər və beləliklə, kütləvi ölüm halları müşahidə edilir. Bu gün mövcud səhiyyə imkanlarımız bizə tam imkan verir ki, vəziyyət nəzarət altında qalsın. Ancaq hər kəs bilməlidir ki, bu vəziyyəti biz qorumalıyıq. Qorumalıyıq və müsbət meyillərin artırılmasına çalışmalıyıq və çalışırıq.

Beynəlxalq müstəvidəki rolumuza gəldikdə, bildiyiniz kimi, Azərbaycan özünü çox məsuliyyətli aparır. Mən qeyd etdim ki, ilk növbədə, ölkə daxilində və beynəlxalq arenada bizim təşəbbüsümüzlə iki Zirvə görüşü keçirilibdir: Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşü və Qoşulmama Hərəkatının Zirvə görüşü. Bildirməliyəm ki, Qoşulmama Hərəkatının Zirvə görüşündə 120 ölkə təmsil olunub, eyni zamanda, Afrika İttifaqı buna qoşulub, o İttifaqda 55 ölkə cəmləşibdir. Avropa İttifaqı ilk dəfə olaraq Qoşulmama Hərəkatının tədbirinə yüksək səviyyədə və ümumiyyətlə, ilk dəfə qoşulmuşdur. Avropa İttifaqında 27 ölkə var. Düzdür, Afrika İttifaqının bəzi ölkələri, eyni zamanda, Qoşulmama Hərəkatının üzvləridir. Ancaq bütün bunlara baxmayaraq, Azərbaycan, deyə bilərəm ki, tam məsuliyyətlə dünyanı birləşdirdi. Qəbul edilmiş bəyannamədə Azərbaycanın xüsusi rolu yüksək qiymətləndirilir. Əlbəttə ki, bizim onsuz da yüksək səviyyədə olan beynəlxalq imicimizə də bu, növbəti bir töhfədir. Azərbaycan liderlik göstərib.

Eyni zamanda, biz Qoşulmama Hərəkatının üzvlərinə, ilk növbədə, müraciət edərək təklif etdik ki, BMT Baş Assambleyasının COVID-19 ilə bağlı xüsusi sessiyası keçirilsin. Bu dəstəyi biz aldıq, Qoşulmama Hərəkatının üzvləri bu təşəbbüsümüzü yekdilliklə dəstəklədilər və ondan sonra biz BMT Baş katibinə, - o, Qoşulmama Hərəkatının Zirvə görüşündə öz sözünü demişdi, müraciətini səsləndirmişdi, - müraciət etdik və indi cavab gözləyirik. Hesab edirəm ki, indiki şəraitdə dünya birliyinin bu məsələ ilə bağlı vahid mövqedən çıxış etməsi zəruridir. Bütün dünya birliyini birləşdirən təşkilat Birləşmiş Millətlər Təşkilatıdır. Ona görə biz belə təkliflə çıxış etdik və ümid edirik ki, bu, müsbət qarşılanar. İndi biz ikitərəfli və çoxtərəfli formatda məsləhətləşmələr aparırıq və əgər bu təklif qəbul olunarsa, onda, bax, dediyim kimi, bir daha Azərbaycanın təşəbbüsü ilə dünya birliyi birləşib bu məsələ ilə bağlı öz sözünü deyəcək.

Çünki burada əsas məsələ özünə qapanmamaqdır. Biz yaxşı xatırlayırıq ki, pandemiyanın ilkin dövründə bəzi ölkələr özlərinə qapandılar. Bəzi ölkələr humanitar məsələlərdə də özlərini elə apardılar ki, sonra yəqin utandılar. Bəzi ölkələr təşviş içində idi. Biz bəzən vəsaitlə aldığımız tibbi avadanlığı gətirməkdə çətinlik çəkirdik. Ona görə indiki şəraitdə hesab edirəm ki, dünya birliyi vahid mövqedən çıxış etməlidir. Bununla paralel olaraq, biz fərdi qaydada 14 ölkəyə humanitar yardım göstərdik. O ölkələr ki, buna onların ehtiyacı var və bizə müraciət etmişdilər. Eyni zamanda, biz Ümumdünya Səhiyyə Təşkilatı xətti ilə əlavə 15 ölkəyə humanitar yardım göstəririk. İndi bu proses gedir. Bu 15 ölkə Qoşulmama Hərəkatına üzv olan ölkələrdir. Ölkələrin siyahısı Ümumdünya Səhiyyə Təşkilatı və Azərbaycan tərəfindən razılaşdırılıb. Burada əsas meyar ən çox ehtiyacı olan ölkələrdir.

Bildiyiniz kimi, Ümumdünya Səhiyyə Təşkilatına Azərbaycan fərdi qaydada iki dəfə ianə veribdir və beləliklə, Azərbaycan beynəlxalq təşkilat vasitəsilə 29 ölkəyə humanitar yardım göstərib. Mən indi bu məsələ ilə bağlı dünyada gedən prosesləri, mənzərəni izləyirəm və tam məsuliyyətlə deyə bilərəm ki, pandemiya dövründə ən çox humanitar yardım göstərən ölkələrdən biri Azərbaycandır. Bax, budur bizim ölkəmiz, budur müstəqilliyimizin üstünlükləri. Kimin ağlına gələ bilərdi ki, Azərbaycan bu belə ilə təkbaşına, bu cür, belə məharətlə, peşəkarlıqla, təmkinlə, ləyaqətlə bacara bilsin. Hələ bəlkə 10 il, 20 il bundan əvvəl kimin ağlına gələrdi ki, Azərbaycan 30-a yaxın ölkəyə humanitar yardım göstərə bilər. O dövrdəki bəzi ölkələr indi o biri ölkələrə çatacaq humanitar yardımı da özlərinə, necə deyərlər, götürmüşdülər. Ona görə biz həm ölkə daxilində, həm beynəlxalq müstəvidə düzgün, ləyaqətli siyasət aparırıq. Ona görə bizə olan rəğbət və hörmət gündən-günə artır.

Bütün bu məsələlərlə yanaşı, bir daha bundan sonrakı dövrə qayıtmaq istəyirəm. Azərbaycan vətəndaşları bizim bütün addımlarımızı dəstəkləyirlər. Halbuki aydın məsələdir ki, pandemiya insanların normal həyat tərzinə təsir edib, mənfi təsir edib. İnsanlar öyrəşdikləri həyat tərzindən müəyyən dərəcədə uzaqlaşıblar. Məhdudiyyətlər var, eyni zamanda, artıq yeni məhdudiyyətlər də ortaya qoyulur. Ancaq Azərbaycan vətəndaşları bilirlər ki, bu məhdudiyyətlərin əsas səbəbi insanları qorumaqdır. İnsanları qorumaq üçün biz bütün addımları atacağıq. Ona görə bir daha Azərbaycan vətəndaşlarına bu dövr ərzində göstərdiyi dəstəyə görə, göstərdiyi həmrəyliyə görə təşəkkür edirəm. Eyni zamanda, bütün vətəndaşları bir daha böyük məsuliyyətə və nizam-intizama çağırıram. Biz birlik nümayiş etdirmişik və bundan sonra da nümayiş etdirəcəyik. Təsadüfi deyil ki, pandemiya dövründə “Biz birlikdə güclüyük!” birləşdirici şüar olmuşdur.

TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlı:

-Təşəkkür edirik, cənab Prezident. Bu gün açılışı gerçəkləşdirilən hər üç modul xəstəxanada çalışacaq tibbi heyətin nümayəndələri buradadırlar. İcazənizlə 28 saylı Birləşmiş Şəhər Xəstəxanasının tibbi heyəti adından Xuraman Cəfərova öz fikirlərini bildirsin.

Xuraman Cəfərova: Möhtərəm cənab Prezident, hörmətli Mehriban xanım.

Bu gün bizimlə bərabər olduğunuza görə Sizə təşəkkürümüzü bildiririk. COVID-19 pandemiyası ilə əlaqədar ölkəmizdə çox ciddi tədbirlər görülür. Xəstəxanalarımızın tibbi avadanlıqlarla və dərman vasitələri ilə təminatı biz həkimlərin işini asanlaşdırır. Həmçinin modul tibbi xəstəxanalar çox sürətlə hazırlanaraq istifadəyə verilir. Bu, öz növbəsində, çarpayı fondunu artırmaq məqsədilə tibbi xidmətin keyfiyyətini xeyli yüksəldir.

Biz hər gün xəstələrin nə qədər əziyyət çəkdiyini görürük və şahidi oluruq. Fürsətdən istifadə edib xalqımızı bu pandemiya dövründə daha diqqətli olmağa və qaydalara daha ciddi riayət etməyə çağırırıq. Cənab Prezident, biz hər zaman Sizin diqqət və qayğınızı hiss edirik. Bu da bütün tibbi heyətdə ruh yüksəkliyi yaratmışdır. Ümid edirik ki, pandemiya tezliklə bitəcək və biz ölkə olaraq pandemiya üzərində qələbə qazanacağıq. Diqqətiniz və qayğınız üçün Sizə bir daha təşəkkürümüzü bildiririk.

Prezident İlham Əliyev: Sağ olun. Təşəkkür edirəm.

Ardı Səh. 5

# “Azərbaycan dövləti əlindən gələni edir ki, biz bu vəziyyətdən az itkilərlə çıxa bilək”

*Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə üç modul tipli xəstəxananın açılışı olub*

Əvvəli Səh. 4

Ramin Bayramlı: Cənab Prezident, digər modul xəstəxanaların açılışında iştirak edən tibbi heyətlər videokonfransla bizə qoşulublar. Sumqayıt 1 saylı şəhər xəstəxanasından həkim Şəhla Hacıyeva, buyurun.

Şəhla Hacıyeva: Möhtərəm cənab Prezident və dəyərli Mehriban xanım.

Əvvəlcə Sizi salamlayırıq. Bizə göstərdiyiniz diqqət və qayğıya görə Sizə çox təşəkkür edirik.

Üç aydan çoxdur ki, biz amansız düşmənlə mübarizə aparırıq. Bu düşmənin gözəgörünməz olması bir çoxlarında elə bir təəssürat yaradır ki, o yoxdur. Bununla da onlar özlərinin və yaxınlarının sağlamlığını təhlükə altına atırlar. Bu ağır günlərdə Sumqayıt şəhərində müasir avadanlıqlarla təchiz olunmuş modul tipli xəstəxananın yaradılması əlamətdar hadisədir. Biz Azərbaycan həkimləri bütün həmkarlarımızla birlikdə bu mübarizəyə qoşulmuşuq. Bütün dünyada olduğu kimi, sağalmış xəstələrdən alınmış plazmanı ağır xəstələrin müalicəsində uğurla tətbiq edirik. Fürsətdən istifadə edərək Sizin köməyinizlə sağalmış xəstələrə müraciət edirik ki, öz plazmalarını bəxş etsinlər və sözün əsl mənasında, həyat qurtarsınlar.

Sizin və çox hörmətli Mehriban xanımın koronavirusla mübarizə tədbirlərini şəxsi nəzarətinizdə saxlamağınız və düzgün istiqamət verməyiniz sayəsində biz Azərbaycan həkimləri tezliklə bu mübarizədən qalib çıxacağımıza inanırıq. Sizə təşəkkür edirik.

Prezident İlham Əliyev: Sağ olun. Bilirsiniz ki, Sumqayıt şəhərinə mən daim böyük diqqət göstərirəm və Prezident kimi dəfələrlə Sumqayıtda olmuşam, orta hesabla minimum ildə iki dəfə, bəzi illərdə daha da çox. Sumqayıtın sənaye potensialının inkişafı bu gün göz qabağındadır. Sumqayıt nəinki Azərbaycanın, eyni zamanda, Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir və eyni zamanda, müasir sənaye şəhəridir. Çünki bildiyiniz kimi, - yaşlı nəsil bunu yaxşı bilir, - əvvəlki dövrdə Sumqayıtda çox çətin ekoloji vəziyyət mövcud idi. Bu gün yeni istifadəyə verilmiş bütün müəssisələr yüz faiz ekoloji standartlara cavab verir. Buna görə Sumqayıtda indi ekoloji vəziyyət çox yaxşılaşıb və hava da təmizdir. Sumqayıt bu gün parklar, bağlar şəhəridir, yaşıllaşdırma işləri gedir. İndi insanları narahat edən və ekoloji problem yaradan Acıdərə kanalı da təmizlənir. Buraya da böyük vəsait ayrılır. Bununla paralel olaraq, şəhər infrastrukturu yenilənir, o cümlədən sosial obyektlər inşa edilir. 1 saylı şəhər xəstəxanasının əsaslı təmirindən sonra əlbəttə ki, vəziyyət daha da yaxşılaşıb.

Mənim göstərişimlə hazırda 2 saylı xəstəxananın tikintisi gedir. İlkin mərhələdə belə təklif olundu ki, o təmir edilsin. Amma sonra mənə verilən məlumata görə, bu, mümkünsüz olub və demək olar ki, xəstəxana yenidən tikiləcək. Bu, bir daha onu göstərir ki, vaxtında görülmüş işlər ən böhranlı dövrdə bizə lazım ola bilər. Bildiyiniz kimi, bütün ölkə üzrə yeni xəstəxanaların tikintisi demək olar ki, başa çatır, bəlkə bir, ya iki şəhərdə hələ ki, istifadəyə verilməyib, amma o da nəzərdə tutulur. Beləliklə, ölkəmizin hər bir şəhərində müasir tibb müəssisəsi var, özü də mərkəzi rayon xəstəxanası səviyyəsində, eyni zamanda, 20-yə yaxın müalicə-diaqnostika mərkəzi. İlk növbədə, əgər bu infrastruktur olmasaydı, biz indi icbari tibbi sığorta sisteminə keçə bilməzdik. Çünki bunun əsas şərti mövcud infrastrukturun müasir səviyyədə olmasıdır.

Bildiyiniz kimi, biz bu ilin əvvəlindən ölkə üzrə tam icbari tibbi sığortaya keçməli idik, ancaq pandemiya planlarımıza müdaxilə etdi. Biz indi bir neçə pilot layihəni icra edərək gördük ki, bunun üstünlüyü nədən ibarətdir və vətəndaşlar da gördü. Ona görə gələn ilin əvvəlindən artıq ölkə üzrə icbari tibbi sığortaya tam keçid nəzərdə tutulur. Bir daha demək istəyirəm ki, əgər biz bu tibb ocaqlarını vaxtında tikməsəydik, indi xəstələri müalicə etmək mümkün olmazdı. Baxın, indi 20-dən çox xəstəxanada koronavirus xəstələri müalicə olunur, bölgələrdə yeni tikilmiş bütün xəstəxanalarda. Əgər bu olmasaydı, harada müalicə olunacaqdı? Bakı şəhərində ən çox harada müalicə olunur: Tibb Universitetinin Cərrahiyyə Klinikasında və Tibb Universitetinin Tədris-Terapevtik Klinikasında. Ən çox müalicə olunan xəstələr oradadır. Yeni klinikada 575 çarpayı mövcuddur. Bizim digər təmir edilmiş, yaxud da yenidən tikilmiş klinikalardır və bütün klinikalar tibbi avadanlıqla təmin olunub. Son illərin istehsalı, aparıcı şirkətlərin istehsalı olan avadanlıq bizə imkan verir ki, istənilən xəstənin müalicəsini təmin edək. Ona görə, bax, bu görülmüş işlərdir və son 16 il ərzində bütövlükdə 700-dən çox tibb müəssisəsi ya yenidən tikilib, ya da əsaslı təmir edilib. Bu güclü sosial səhiyyə infrastrukturu bizə imkan verdi ki, bu vəziyyətdən də şərəflə çıxaq. Biz iki min əlavə çarpayını ona görə yaradırıq ki, bu, bir ehtiyat olsun, Allah eləməsin, bu xəstəlik daha geniş yayılsa, bizim imkanımız olsun. Lazım olarsa, əlavə 10 xəstəxana da tikərik. Yəni, bu məqsədlər üçün biz istənilən vəsaiti tapa bilərik və tapırıq.

Bu dövr ərzində bir daha demək istəyirəm ki, Azərbaycan beynəlxalq arenada siyasi cəhətdən özünü güclü dövlət kimi göstərdi, iqtisadi sahədə güclü dövlət kimi göstərdi, sosial sahədə güclü dövlət kimi göstərdi. Göstərdi ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı durur. Onu da bildirməliyəm ki, bu dövr ərzində aparıcı beynəlxalq maliyyə qurumlarının hesablamalarına görə, 150-dən çox ölkə beynəlxalq maliyyə qurumlarına yardımla bağlı müraciət edib. Azərbaycanın adı bu siyahıda yoxdur. Biz heç kimdən yardım almırıq, heç kimdən yardım istəmirik, biz kredit istəmirik. Ancaq yüksək texnoloji layihələrin həyata keçirilməsi üçün kredit ala bilərik, bizə məqbul olan şərtlərlə. Ona görə bütün parametrlər üzrə Azərbaycan liderlik göstərib. Bu liderlik artıq regionumuzun çərçivələrindən çoxdan çıxıb.

Saray qəsəbəsində işləyən həkimlər, buyurun.

Həkim Nərmin Verdiyeva: Hörmətli cənab Prezident və çox dəyərli Mehriban xanım.

Öncə bütün Azərbaycan həkimləri adından bizə göstərdiyiniz qayğı və yaratdığınız şərait üçün Sizə dərin minnətdarlığımızı bildiririk. Artıq hər birimiz bilirik ki, bütün dünya ölkələri kimi, Azərbaycan da koronavirus pandemiyası ilə mübarizə aparır. Ölkəmizin bir sıra tibb müəssisələrində koronavirus pandemiyası ilə mübarizə aparmaq məqsədilə xüsusi şərait yaradılmışdır, xüsusi tibbi avadanlıqlarla təchiz edilmiş, dərman preparatları ilə təmin olunmuşdur. Modul tipli xəstəxanalar da məhz bu xəstəxanalardandır. Sizin təşəbbüsünüzlə inşa edilmiş və ən qısa zamanda biz həkimlərin ixtiyarına verilən modul tipli xəstəxanalar həm bugünkü vəziyyətdə, həm də gələcəkdə bir sıra xəstəliklərlə mübarizə apararkən təcili və təxirəsalınmaz tibbi yardımlar göstərmək üçün biz həkimlərə geniş imkanlar yaradıb. Sizin də qeyd etdiyiniz kimi, koronaviruslu xəstələrlə çalışarkən biz xüsusi fərdi kostyumlardan istifadə edirik. Yay fəslinin gəlməsi, havaların isinməsi bu kostyumlarda çalışmağı bir az çətinləşdirir. Lakin əmin ola bilərsiniz ki, bütün bu çətinliklərə baxmayaraq, Sizin dəstəyinizlə biz gecə-gündüz çalışaraq pandemiya ilə mübarizə aparıb, bu çətin sınaqdan ən uğurlu şəkildə çıxacağıq.

Prezident İlham Əliyev: Çox sağ olun. Mən bir daha həkimlərin fəaliyyətini qiymətləndirmək istərdim. Mən, Azərbaycan dövləti, Azərbaycan xalqı bu dövrdə gördülər ki, həkimlər içdikləri Hippokrat andına sadiqdir, öz vəzifə borclarını şərəflə yerinə yetirirlər. Həkimlərin arasında yoluxanlar da var və onlar öz həyatını risk altına ataraq xəstələri müalicə edir, onları həyata qaytarırlar. Təsadüfi deyil ki, mənim təşəbbüsümlə ölkəmizin və şəhərimizin yeni simvollarından biri olan Alov Qüllələrində məşhur şüar əks olunmuşdur: Azərbaycan həkimlərinə eşq olsun!

Bir daha bunu demək istəyirəm, Azərbaycan həkimlərinə eşq olsun və ayaq üstə Azərbaycan həkimlərini alqışlamaq istəyirəm. Sağ olun.

# Operativ Qərargah:
# Xüsusi karantin rejimi uzadıldı

***Azərbaycan Respublikası ərazisində yeni nov koronavirus (COVID-19) xəstəliyi ilə bağlı mövcud sanitar-epidemioloji vəziyyət təhlil edilmiş və son günlərdə virusa yoluxma sayı, xəstəliyin yayılma dinamikası nəzərə alınaraq, ölkə üzrə xüsusi karantin rejiminin 1 iyul 2020-ci il saat 00:00-dək uzadılmasına qərar verilib.***

Operativ Qərargahdan SİA-ya verilən məlumata görə, Azərbaycanda virusa ilk yoluxma faktının qeydə alındığı tarixdən bu günədək COVID-19 testi musbət çıxmış 8191 nəfər aşkarlanmış, hazırda isə 3487 aktiv xəstə müalicəsini xüsusi karantin rejimli xəstəxanalarda davam etdirir.

Ölkə üzrə sanitar-epidemioloji vəziyyətin təhlilinə əsasən, son günlər Yevlax, İsmayıllı, Kürdəmir və Salyan rayonlarında yüksək yoluxma faktları aşkar edilmişdir. Bu baxımdan COVID-19 virusunun yayılma sürətinin azaldılması, eləcə də onun törədə biləcəyi fəsadların minimuma endirilməsi məqsədilə 2020-ci il 14 iyun saat 00:00-dan 16 iyun saat 06:00-dək Bakı, Gəncə, Lənkəran və Sumqayıt şəhərlərinin, Abşeron, Yevlax, İsmayıllı, Kürdəmir və Salyan rayonlarının ərazisində sərtləşdirilmiş karantin rejimi tətbiq ediləcək. Bununla əlaqədar olaraq Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah aşağıdakıları qərara alır:




2020-ci il 14 iyun saat 00:00-dan 16 iyun saat 06:00-dək Bakı, Gəncə, Lənkəran və Sumqayıt şəhərlərinin, Abşeron, Yevlax, İsmayıllı, Kürdəmir və Salyan rayonlarının ərazisində bütün iş, xidmət və ticarət sahələri üzrə fəaliyyət, eyni zamanda ictimai nəqliyyatın və avtomobillərin hərəkəti dayandırılır (xüsusi təyinatlı, qəza-bərpa, təcili tibbi yardım avtomobillərinin və fəaliyyətinə icazə verilən orqanların (qurumların) və təşkilatların xidməti, həmçinin onların əməkdaşlarına məxsus şəxsi avtomobillərin, eyni zamanda yaxın qohumlarının dəfnində iştirakla əlaqədar vətəndaşların şəxsi avtomobillərinin hərəkəti istisna olmaqla);

2020-ci il 14 iyun saat 00:00-dan 16 iyun 06:00-dək Bakı, Gəncə, Lənkəran və Sumqayıt şəhərlərində, Abşeron, Yevlax, İsmayıllı, Kürdəmir və Salyan rayonlarında əhalinin yaşayış yerlərini və ya olduğu yerləri tərk etməsi qadağan edilir;

sakinlər qeyd olunan müddətdə Bakı, Gəncə, Lənkəran və Sumqayıt şəhərlərində, Abşeron, Yevlax, İsmayıllı, Kürdəmir və Salyan rayonlarında yaşayış yerlərini və ya olduğu yerləri həyat və sağlamlığa bilavasitə təhlükəli vəziyyət yarandığı halda, eləcə də təxirəsalınmaz tibbi yardıma ehtiyac olduqda yalnız təcili tibbi yardım xidməti vasitəsilə, habelə yaxın qohumların dəfnində iştirak etmək üçün Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Növbətçi Hissələri İdarəetmə Xidmətinin 102 Xidməti - Zəng Mərkəzi vasitəsi ilə icazə almaqla tərk edə bilər. 2020-ci il 14 iyun saat 00:00-dan 16 iyun saat 06:00-dək Bakı, Gəncə, Lənkəran

## 3 gün evdən çıxmaq qadağan edilir



14 iyun saat 00:00-dan 16 iyun 06:00-dək Bakı, Gəncə, Lənkəran və Sumqayıt şəhərlərində, Abşeron, Yevlax, İsmayıllı, Kürdəmir və Salyan rayonlarında əhalinin yaşayış yerlərini və ya olduğu yerləri tərk etməsi qadağan edilir. Bu barədə SİA-ya Operativ Qərargahdan məlumat verilib

X 2020-ci il 14 iyun saat 00:00-dan 16 iyun saat 06:00-dək Bakı, Gəncə, Lənkəran və Sumqayıt şəhərlərinin, Abşeron, Yevlax, İsmayıllı, Kürdəmir və Salyan rayonlarının ərazisində bütün iş, xidmət və ticarət sahələri üzrə fəaliyyət, eyni zamanda ictimai nəqliyyatın və avtomobillərin hərəkəti dayandırılır (xüsusi təyinatlı, qəza-bərpa, təcili tibbi yardım avtomobillərinin və fəaliyyətinə icazə verilən orqanların (qurumların) və təşkilatların xidməti, həmçinin onların əməkdaşlarına məxsus şəxsi avtomobillərin, eyni zamanda yaxın qohumlarının dəfnində iştirakla əlaqədar vətəndaşların şəxsi avtomobillərinin hərəkəti istisna olmaqla);

X 2020-ci il 14 iyun saat 00:00-dan 16 iyun 06:00-dək Bakı, Gəncə, Lənkəran və Sumqayıt şəhərlərində, Abşeron, Yevlax, İsmayıllı, Kürdəmir və Salyan rayonlarında əhalinin yaşayış yerlərini və ya olduğu yerləri tərk etməsi qadağan edilir;

X sakinlər qeyd olunan müddətdə Bakı, Gəncə, Lənkəran və Sumqayıt şəhərlərində, Abşeron, Yevlax, İsmayıllı, Kürdəmir və Salyan rayonlarında yaşayış yerlərini və ya olduğu yerləri həyat və sağlamlığa bilavasitə təhlükəli vəziyyət yarandığı halda, eləcə də təxirəsalınmaz tibbi yardıma ehtiyac olduqda yalnız təcili tibbi yardım xidməti vasitəsilə, habelə yaxın qohumların dəfnində iştirak etmək üçün Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Növbətçi Hissələri İdarəetmə Xidmətinin 102 Xidməti - Zəng Mərkəzi vasitəsi ilə icazə almaqla tərk edə bilər.

## Nyu-York-Bakı reysi ilə gətirilən 210 Azərbaycan vətəndaşı iyunun 10-da Bakıda olacaq

Nyu-York-Bakı reysi ilə gətirilən 210 Azərbaycan vətəndaşı iyunun 10-da Bakıda olacaq. Bunu Nazirlər Kabinetinin Mətbuat Xidmətinin rəhbəri İbrahim Məmmədov Operativ Qərargahın bu gün keçirilən brifinqində deyib. "Həmçinin iyunun 10-dan 30-dək olan müddətdə təşkil ediləcək xaricdən çarter reyslərinin qrafiki hazırlanır", - deyə o bildirib.

## Tural Gəncəliyev: Ölkəmizin ərazi bütövlüyü tezliklə bərpa ediləcək və Dağlıq Qarabağ Arayik kimilərdən təmizlənəcək



Dağlıq Qarabağ Bölgəsinin azərbaycanlı icmasının rəhbəri Tural Gəncəliyev Azərbaycanın işğal olunmuş Qarabağ bölgəsində Ermənistan tərəfindən təşkil edilmiş qondarma rejimin "başçısının" açıqlamasına münasibət bildirib.

İcmadan AZƏRTAC-a bildiriblər ki, Tural Gəncəliyevin bununla bağlı açıqlamasında deyilir: Ermənistan tərəfindən Azərbaycan Respublikasının işğal olunmuş Qarabağ bölgəsində yaradılmış qondarma rejimin qondarma "başçısı" Araik Arutunyan yenə öz sayıqlamaları ilə gündəmdə qalmağa çalışıb. Azərbaycan Respublikasının işğal altındakı ərazilərini talamaqla, həmçinin Serj Sarkisyan və Robert Koçaryan kimi bəşəriyyət əleyhinə cinayətlər törətmiş quldurlara əlaltılıq etməklə özünə sərvət toplamış bir korrupsioner cinayətkarın belə narahatlıq keçirməsi bizdə təəccüb doğurmur.

Qondarma və oyuncaq rejimin oyuncaq "başçısı" yaxşı anlayır ki, onun özünün və onun kimilərin Azərbaycan Respublikası qanunları qarşısına mühakimə ediləcəyi gün çox yaxındır və bundan qaçış mümkün olmayacaq.

Bunu qeyd etmək vacibdir ki, hazırda Azərbaycanın Dağlıq Qarabağ bölgəsi Ermənistanın işğalı altında olduğundan, bölgənin erməni sakinləri Ermənistanın işğalçı rejiminin əsarətində yaşamağa məcbur ediliblər. Prezident İlham Əliyevin vurğuladığı kimi, ölkəmizin ərazi bütövlüyü çox tezliklə bərpa ediləcək və Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi Arayik kimilərdən təmizlənəcək. Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni və azərbaycanlı icmaları Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində birgə sülh şəraitində yaşaması tezliklə təmin ediləcək".

## Bu il ali məktəblərə qəbul olunacaq həssas qrupdan olan tələbələr təhsil haqqı ilə bağlı müraciət edə bilərlər



Sentyabrda - payız semestrində təhsil müəssisələrinə yeni tələbələr qəbul olunacaq və həmin tələbələr həssas qrupdan olarsa, onlar da ödənişlə bağlı müraciət edə biləcəklər.AZƏRTAC xəbər verir ki, bunu həssas qruplardan olan tələbələrin təhsil haqlarının ödənilməsi ilə bağlı onlayn müzakirədə Təhsil nazirinin müşaviri Elnur Məmmədov deyib. O qeyd edib ki, güzəştlər cari və bu il tələbə olacaq şəxslərə şamil olunacaq.

## Ölkədaxili uçuşların həyata keçirilməsinə start verilir



"1 iyul 2020-cil il tarixinə qədər çarter reysləri istisna olmaqla ölkəyə xaricdən olan bütün gediş-gəliş dayandırılır. Lakin, ölkədaxili uçuşların iyunun 15-dən etibarən həyata keçiriləcək". SİA-nın verdiyi məlumata görə, bunu dünən Nazirlər Kabineti yanında Operativ Qərargahın keçirdiyi brifinqdə Nazirlər Kabinetinin Mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov deyib. İ.Məmmədov bildirib ki, ilk növbədə Naxçıvava uçuşlar həyata keçiriləcək: "Naxçıvana ilk növbədə həftəlik 2 dəfə uçuşlar həyata keçirilə bilər. Bu gələn həftələrdə daha da artırıla bilər. Lakin bu zaman xüsusi qaydalar tətbiq ediləcək".

## Müdafiə Nazirliyi: "David Tonoyanın Ermənistan ordusu barədə səsləndirdiyi "konsepsiya" absurddur"



David Tonoyanın Ermənistan ordusu barədə səsləndirdiyi "konsepsiya" absurddur. Bunu Ermənistan müdafiə naziri David Tonoyanın işğalçı ölkənin ordu quruculuğu konsepsiyasına dair çıxışı ilə bağlı AZƏRTAC-ın sorğusuna cavab olaraq Azərbaycanın Müdafiə Nazirliyindən bildiriblər.

Nazirliyin açıqlamasında qeyd olunub ki, Ermənistan müdafiə naziri David Tonoyanın "ordu quruculuğu konsepsiyasına dair" fikirlərinə münasibət bildirərkən ilk növbədə qeyd etmək lazımdır ki, bu, son günlər Ermənistanda yüksək vəzifəli hərbçilərin tutduqları postlardan azad edilməsi fonunda onun öz kreslosunu qoruyub saxlamaq üçün atdığı populist addımdır. Xarici dövlət borcunun dövlət büdcəsini üstələdiyi, iqtisadiyyatının isə xarici ianələr və "marafonlar"dan əldə olunan vəsaitlər hesabına formalaşdığı bir ölkənin müdafiə nazirinin bu cür çıxış etməsi absurddur. Belə ki, D.Tonoyanın səsləndirdiyi fikirlərin Ermənistan miqyasında praktiki olaraq həyata keçirilməsi mümkün deyil. Buna nə Ermənistanın iqtisadiyyatı, nə də hərbi potensialı imkan vermir.

"Ermənistanın müdafiə nazirinin daxili auditoriyaya ünvanlanmış bu fikirləri müxtəlif xarici hərbi-strateji əsərlərdən götürülmüş nəzəri fərziyyələrdən başqa bir şey deyil. D.Tonoyanın çıxışında diqqət çəkən məqamlardan biri isə Ermənistan silahlı qüvvələrinin Dağlıq Qarabağda, qoşunların təmas xəttində yerləşdirilməsi barədə etirafıdır ki, bu da Ermənistanın işğalçı ölkə olduğunu bir daha rəsmi şəkildə təsdiq edir", - deyə Azərbaycan Müdafiə Nazirliyinin açıqlamasında qeyd olunub.

## Aslan Aslanov: "Pandemiya dövründə etibarlı xəbər mənbələrinə müraciətlərin artdığını gördük"



***Pandemiya dövründə jurnalistikanın ənənəvi prinsipləri dezinformasiyaların qarşısının alınmasında böyük rol oynadı və biz etibarlı xəbər mənbələrinə müraciətlərin artdığını gördük. Bu fikirləri AZƏRTAC-ın İdarə Heyətinin sədri, OANA-nın vitse-prezidenti Aslan Aslanov Avropa Xəbər Agentlikləri Alyansının (EANA) baş katibi Aleksandr Giboiyə müsahibəsində bildirib.***

Müsahibədə Azərbaycanda xüsusi karantin rejimi müddətində dövlət başçısının tapşırığı ilə hökumətin həyata keçirdiyi miqyaslı sosial tədbirlər paketindən, evdə qaldığı müddətdə insanlara göstərilən maddi dəstəkdən bəhs edilib. Diqqətə çatdırılıb ki, bu dövrdə yayılan şayiələrin qarşısının alınmasında Operativ Qərargahın jurnalistlərlə birgə fəaliyyəti önəmli rol oynayıb. "Belə həssas məqamlarda istənilən özfəaliyyət, yoxlanılmamış məlumatın yayımı vəziyyəti daha da ağırlaşdıra bilər. Biz sosial şəbəkələr, mesencerlər vasitəsilə çox sayda dezinformasiya, uydurma məlumatlar paylaşıldığının şahidi olduq. Kimlərsə haradansa nələrsə eşidib onu tanışlarına göndərir və bu da bir qar topası kimi böyüyərək minlərlə insanı əhatə edir. Azərbaycanda karantin rejimi müddətində Nazirlər Kabineti yanındakı Operativ Qərargahın müntəzəm brifinqlər keçirməsi və sualları operativ cavablandırması vəziyyəti xeyli dəyişdi", - deyə Aslan Aslanov bildirib.

AZƏRTAC-ın xüsusi karantin rejimində fəaliyyəti ilə bağlı suala cavab olaraq İdarə Heyətinin sədri qeyd edib ki, agentlik insanları COVID-19 xəstəliyi ilə bağlı məlumatlandırmaq və maarifləndirmək üçün işlərə hələ yanvardan başlayıb, infoqrafikalar, ekspert rəyləri, videoreportajlar hazırlayaraq abunəçilərə göndərib, veb-resurslarında, sosial şəbəkə səhifələrində yayıb: "İnsanların evdə qaldığı xüsusi karantin rejimində etibarlı məlumata olan ehtiyacların necə artdığının, bizim agentliyi doğru məlumat mənbəyi kimi seçdiklərinin şahidi olduq. Statistik məlumatlara əsasən deyə bilərəm ki, karantin rejimində bizim informasiyalara müraciətlər 40 faizə qədər yüksəldi. Sosial şəbəkə səhifələrimizdə həm abunəçilərin sayı, həm də digər KİV-lərin müraciəti artdı. Bu da agentliyin xəbərlərinə olan etibardan irəli gəlir".

Müsahibədə, həmçinin AZƏRTAC-ın xüsusi karantin rejimi müddətində əməkdaşların təhlükəsizliyini təmin etmək istiqamətində görülən tədbirlərdən danışılıb. Qeyd olunub ki, işçilərə dezinfeksiyaedici maddələr, tibbi maskalar paylanılıb. Kollektivin 70 faizi məsafədən çalışsa da agentlik 8 dildə informasiya, video və foto buraxılışını davam etdirib.

Postpandemiya dövründə xəbər agentliklərinin fəaliyyəti ilə bağlı fikirlərini paylaşan Aslan Aslanov vurğulayıb ki, sosial şəbəkə bumuna, açıq informasiya mənbələrinin sürətlə artmasına baxmayaraq, gələcəkdə də xəbər agentliklərinə ehtiyac olacaq. "Sosial medianın genişlənməsi, onlayn media resurslarının artması, informasiyaya çıxışın hər kəs üçün əlçatan olması agentliklərə təsir edir və edəcək. Lakin cəmiyyətin seçim etmək imkanı olacaq: 100 illik tarixi olan media quruma etibar etsin, yoxsa yeni yaranan hansısa bir resursa? Əlbəttə, sosial-psixoloji amil seçimi böyük təcrübəsi olan medianın xeyrinə edəcək. Pandemiya dövründə biz bir daha bunun şahidi olduq. Eyni zamanda, real şərait göstərir ki, agentliklər informasiya texnologiyalarından daha çox yararlanaraq resurslarını gücləndirməli, fəaliyyətlərini şaxələndirməlidirlər", - deyə o qeyd edib.

# Azərbaycan polisinin dövlətçilik mövqeyi daim qətiyyətli və sarsılmazdır

*Görkəmli Kolumbiya yazıçısı, Nobel mükafatı laureatı Qabriel Qarsiya Markes yazırdı ki, ədəbiyyat olmasaydı dünya zərrəcə dəyişməzdi. Amma polis olmasaydı dünya tamam başqa cür olardı. Tamamilə doğrudur ki, polis hər bir ölkənin sabitliyini, təhlükəsizliyini təmin edir, cinayətkarlığın qarşısını alır, qanunçuluğu bərqərar edir.*



Vüqar Rəhimzadə, "İki sahil" qəzetinin baş redaktoru

### Cəmiyyətin polisə ictimai rəğbəti daha da artır

Azərbaycan polisi çox qısa zaman ərzində mütəşəkkil cinayətkarlığa, sabitlik üçün təhlükə doğuran zərərli meyillərə, qanunsuz silahlı birləşmələrə qarşı mübarizə istiqamətində mühüm nailiyyətlər qazanıb. Azərbaycan polisi dövlətçiliyimiz əleyhinə yönəlmiş cinayətkar qəsdlərin və digər qeyri-konstitusion əməllərin, vətəndaş qarşıdurmasının, kütləvi və mütəşəkkil cinayətkarlıq təzahürlərinin, cəzasızlıq mühitinin aradan qaldırılmasında önəmli xidmətlər göstərib. Bu cür uğurlar cinayətkarlıqla mübarizədə canını, sağlamlığını belə, əsirgəməyən Azərbaycan polisinin fədakarlığına, öz dövlətinə, xalqına, Prezidentinə sədaqətinə söykənir və polis-vətəndaş münasibətlərinin daha da möhkəmlənməsi şəraitində cəmiyyətin polisə ictimai rəğbətini daha da artırır.

### Dünya KİV-lərində "Qəhrəman polis" altyazısı da bizim polisimizə aiddir

Azərbaycan polisi dövlətini, dövlətçiliyini qoruyur və yeri gələndə bu müqəddəs amallar uğrunda şəhidlik zirvəsinə yüksəlməyi özünün ali məqsədi sayır. Polisimiz ölüm təhlükəsi ilə üzləşən insanları xilas etmək üçün həyatını düşünmədən riskə atan qəhrəmanlar qədər qüdrətlidir. Gəlin, bir anlığa xatırlayaq ki, 2015-ci ildə paytaxtın Binəqədi rayonunda çoxmərtəbəli yaşayış binasında güclü yanğın baş verən zaman 4 nəfəri xilas edən polisin qucağında körpə uşaq olan fotosu dünya KİV-lərində "Qəhrəman polis" altyazısı ilə dərc olundu. Azərbaycan polisinin qəhrəmanlığına başqa bir nümunə qanlı 20 Yanvar faciəsində ilk şəhidin polis əməkdaşı Telman Bağırov olması faktıdır. Azərbaycan polisi birinci Qarabağ müharibəsində sıralarından 1695 nəfər şəhid verib, 1710 nəfər yaralanıb, 66 nəfər polis əməkdaşı Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Müstəqillik illərində cinayətkarlığa qarşı mübarizədə, ictimai təhlükəsizliyin təmin edilməsində daxili işlər orqanlarının 99 əməkdaşı və hərbi qulluqçusu həlak olub, 2650 nəfər xəsarət alıb. Bütün bunların arxasında isə vəzifə borcunu yerinə yetirərkən hər bir təhlükəyə hazır olan Azərbaycan polisinin şəxsiyyəti, qəhrəmanlığı, igidliyi dayanır.

### Azərbaycan polisi pandemiya dövrünün şəksiz qəhrəmanlarındandır

Hər zaman olduğu kimi, koronavirus pandemiyası dövründə də polisin şücaətini, qətiyyətini, eyni zamanda, humanistliyini, canıyananlığını, sələflərinin ənənələrinə sədaqətliliyini gördük. Hər kəs bir daha anladı ki, Azərbaycan polisi bu çətin günlərdə hər an insanların təhlükəsizliyinin və ölkənin sabitliyinin keşiyindədir. COVID-19 kimi ümumbəşəri bəlanın tüğyan etdiyi bu günlərdə Azərbaycan polisi həyatını təhlükəyə ataraq yaşlı insanların qapısının zəngini çalır, onlara ərzaq yardımı çatdırır, digər həyati problemlərinin həllinə yardımçı olur.

Nəzərə almaq lazımdır ki, hazırda bəşəriyyətin yeni bəlası olan koronavirus dünya dövlətlərinə hərtərəfli zərər vurmaqda davam edir. Pandemiya dünya ölkələrində iqtisadi və maliyyə böhranına da səbəb olub. Gündən-günə virusa yoluxanların, həyatını itirənlərin sayı artır. Artıq dünyada 7 milyon insan bu xəstəliyə yoluxub, 500 minə qədər insan isə bu öldürücü virusun qurbanı olub. Avropada, xüsusən İtaliya və İspaniyada yoluxma halları və ölüm faktları bir müddət öncə artan xətt üzrə inkişaf edirdi. İndi isə koronavirus Avropanın digər ölkələrində tüğyan edir. Avropa ilə müqayisədə ABŞ-da yayılma və ölüm halları gec başladı, indi isə bu ölkə az qala koronavirus pandemiyasının əsarəti altındadır. Hazırda ABŞ-da 2 milyondan çox insan virusa yoluxub, 112 mindən çox ölüm faktı qeydə alınıb.

Əlbəttə ki, bu durum Azərbaycandan da yan keçməyib. Ölkəmizdə də gündən-günə virusa yoluxanların sayında artım müşahidə olunur. Hazırda ölkəmizdə 8 minə qədər insan virusa yoluxub, 93 nəfər vəfat edib. Amma buna baxmayaraq, dövlətimiz koronavirusla mübarizədə ciddi qabaqlayıcı tədbirlər görür. Lakin nəzərə almaq lazımdır ki, maskasız olan şəxs əgər xəstədirsə, o, minimum 60 nəfəri koronavirusa yoluxdura bilər. Həmin 60 nəfər isə bir gün ərzində ən azı 3600 nəfəri virusa yoluxdurar.

Məhz bu qədər təhlükəli bir zamanda həyatını təhlükəyə atan Azərbaycan polisi dövlətçiliyin keşiyində ayıq-sayıq durmaqla yanaşı, vətəndaşlara xidmət göstərməkdə də davam edir. Polis vətəndaşlarımızın sağlamlığı və təhlükəsizliyi naminə xidməti borcunu layiqincə yerinə yetirir, virusa yoluxma riskini azaltmaq üçün xüsusi karantin rejiminin tələblərinə ciddi riayət edilməsinə nəzarət edir, qanunla müəyyən olunmuş qaydada, öz səlahiyyətləri çərçivəsində müvafiq addımlar atır. Azərbaycan polisi xidməti borcunu layiqincə yerinə yetirməklə yanaşı, çətin vəziyyətdə olan insanların da köməyinə çatır, onlara yardım əli uzadır, humanist davranışları ilə həm də milli həmrəyliyə töhfələrini verir. Elə bu səbəblərə görədir ki, Azərbaycan polisi pandemiya dövrünün şəksiz qəhrəmanlarından hesab edilir.

### Polis şərəfi ləkə götürməz, yaxud "beşinci kolon"un təxribatları fiaskoya məhkumdur

Bəli, göründüyü kimi, Azərbaycan polisi bu günə qədər şərəfli inkişaf yolu keçib, peşəkarlaşıb, daha da mətinləşib. Bu gün çəkinmədən Azərbaycan polisini vətəndaşlarla insani və xoş davranışlarına görə bütün dünyaya nümunə göstərə bilərik. Xüsusi karantin rejimi dövründə insanların xəstəxanaya çatdırılması, yaxınının dəfninə getmək istəyən şəxsin həmin ünvana aparılması, ehtiyacı olan xəstə uşağa qidanın çatdırılması və s. kimi insani davranışlar polislərimizin hər zaman xalqımızın əmin-amanlığının keşiyində layiqincə dayanmasının bariz nümunəsidir. Əgər ABŞ, Hindistan, Avropa ölkələri polislərinin əməllərinə, hərəkətlərinə diqqət etsək, göz önündə olan digər faktlara nəzər yetirsək o zaman yuxarıda dediyimiz fikrin nə dərəcədə həqiqətə uyğun olduğunu bir daha anlamış olarıq.

Lakin çox təəssüflər olsun ki, bu günlər Azərbaycanın COVID-19-la mübarizə sahəsində beynəlxalq aləmdə etiraf olunan uğurlarına qısqanclıqla yanaşan antimilli qüvvələr, xüsusilə Vətənə xəyanətdə, satqınlıqda ad çıxarmış "beşinci kolon" polislərimizin bu cür yüksək səviyyəli xidmətinə kölgə salmağa çalışır, sosial şəbəkələrdə polislərin əleyhinə təbliğat aparır. Sanki bir məqam axtarırmış kimi Sevinc Osmanqızı, Qənimət Zahid, Tural Sadıqlı, Əli Kərimli və başqaları polisin fəaliyyətinə qarayaxmağa cəhd göstərirlər. Halbuki Sevinc Osmanqızının yaşadığı ABŞ-da, Qənimət Zahidin məskunlaşdığı Fransada, Tural Sadıqlının sığındığı Almaniyada polislərin vəhşiliklərinə dair saysız-hesabsız faktlar mövcuddur və bu antimilli ünsürlər həmin faktları görməzlikdən gəlirlər. Bütün dünya ABŞ-da polisin günahsız insanları öldürməsindən danışdığı halda erməni dairələrin maliyyələşdirdiyi Əli Kərimli, Sevinc Osmanqızı, Qənimət Zahid, Cəmil Həsənli, Tural Sadıqlı kimilər karantin rejiminin tələblərini pozanlara qarşı qanunamüvafiq tədbirlər görən Azərbaycan polisinə ləkə atmağa çalışırlar. Əlbəttə ki, onlar nə qədər çalışsalar da Azərbaycan polisinin imicini ləkələyə, şərəfli xidmətinə qara yaxa bilməzlər. Bu səbəbdən də onların Azərbaycan polisinə qarşı törətdikləri növbəti təxribat da fiaskoya uğrayacaq.

O ki qaldı, xidməti vəzifəsini yerinə yetirən polisə təhqirlər yağdırmaq, əşyalar atmaq qətiyyən yolverilməzdir və ağır cinayət əməlidir. Həmin insanlar anlamalıdırlar ki, onların sağlamlığına görə həmin polislər gecə-gündüz keşik çəkirlər. Başa düşməlidirlər ki, onların gecə evlərində rahat yatmaları məhz təhqir edib, üzərinə əşya atmağa çalışdıqları polisin sayəsindədir. Sirr deyil ki, Azərbaycanda hər hansı təhlükə anında vətəndaşın gözü polisi axtarır. Çünki vətəndaş əmindir ki, polis onun təhlükəsizliyi üçün özünü təhlükəyə atar, onu qoruyar. Bütün bunlara görə də biz öz qəhrəman polisimizi daha yaxşı tanımalı və dəyərləndirməliyik. Xalqın polisinə verdiyi dəyər, qiymət onu daha da qürurlandırır. Bu qürur isə asayiş keşikçilərini daha məsuliyyətlə, daha şərəflə xidmət etməyə ruhlandırır.

---

## Sevinc Fətəliyeva: Azərbaycan brendi olan "ASAN Xidmət" dünya üçün nümunədir



"Məlumdur ki, ölkəmizdə əhalinin həyat səviyyəsinin yüksəldilməsini, vətəndaşların sosial təminatlarının əhatə dairəsinin genişləndirilməsini hədəfləyən kompleks tədbirlər həyata keçirilir. Respublikamızda inklüzivliyin artırılmasına, sosial xidmətlərə əlçatanlığın təmin olunmasına geniş imkanlar açan "ASAN xidmət" mərkəzlərinin yaradılması buna əyani nümunədir". Bu fikirləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib.

S.Fətəliyeva bildirib ki, ölkəmizdə aparılan islahatlar çərçivəsində reallaşdırılan tədbirlərin böyük bir qismi idarəetmənin optimallaşdırılmasına, vətəndaşlara göstərilən xidmətlərin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulmasına, xidmətlərdə sosial ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsiplərinin təmin edilməsinə xidmət edir. Bu baxımdan, Prezident İlham Əliyevin təşəbbüsü ilə "ASAN xidmət" mərkəzlərinin yaradılması mühüm əhəmiyyət kəsb edir. Millət vəkilinin sözlərinə görə, iyunun 3-də Prezident İlham Əliyevin Ağcabədidə "ASAN Həyat" mərkəzinin açılışında qeyd etdiyi kimi ölkəmizdə "ASAN Xidmət"in sayı 19-da çatıb. Hazırda isə səkkiz mərkəzin tikintisi nəzərdə tutulur. Bütövlükdə isə, bütün ölkənin "ASAN xidmət" mərkəzləri ilə əhatə edilməsi planlaşdırılır. Ötən dövr ərzində "ASAN xidmət"ə təxminən 38 milyon müraciət daxil olub. Bu qurum insanlara 320 sayda xidmət göstərir. Ölkə vətəndaşları da "ASAN xidmət"in fəaliyyətindən məmnundurlar. Belə ki, vətəndaşların bəyənmə dərəcəsi 99,4 faizdir. Bu isə insanlara şəffaf, rahat xidmətin göstərilməsinin nəticəsidir.

S.Fətəliyeva söyləyib ki, "ASAN Xidmət" mərkəzlərində innovasiyaların tətbiqinə geniş meydan verilir: "Bu, Azərbaycan dövlətinin gələcəyə baxışı ilə tam uzlaşır. Bu mərkəzlərdə müasir texnologiyaların tətbiqi bir tərəfdən göstərilən xidmətlərə əlçatanlığı artırır, digər tərəfdən isə vətəndaş-məmur təmasları minimuma enir, şəffaflıq yüksək səviyyədə təmin edilir. Bütün bunlar isə son nəticədə ölkədə vətəndaş məmnunluğunun yüksək səviyyədə təmin olunmasını şərtləndirir. Dövlət başçısının qeyd etdiyi kimi, bu gün "ASAN xidmət" ölkəmizin intellektual məhsuludur. "ASAN xidmət"in fəaliyyəti Azərbaycanda innovasiyaların inkişafına da çox böyük təkan verir. Qürurverici hal ondan ibarətdir ki, dünya ölkələri Azərbaycanın təcrübəsini öyrənir və "ASAN Xidmət" modelini özlərində tətbiq edirlər. Bir sözlə, Azərbaycan brendi olan "ASAN Xidmət" dünya üçün nümunə olan bir modeldir".

## ÜST-nin rəhbəri: İndi arxayınlaşmaq və sayıqlığı itirmək olmaz



Avropada koronavirusla bağlı vəziyyət yaxşılaşsa da, qlobal miqyasda işlər pisləşməyə doğru gedir. Son bir sutkada COVID-19-a yoluxma hallarının sayı rekord dərəcəyə çatıb. Ümumdünya Səhiyyə Təşkilatı dövlətləri və onların vətəndaşlarını sayıqlığı itirməməyə, kütləvi toplantılar, o cümlədən etiraz nümayişləri zamanı ehtiyat tədbirləri görməyə çağırır.

AZƏRTAC xəbər verir ki, ÜST-nin baş direktoru Cenevrədə brifinq keçirərək COVID-19-a yoluxmaların sayının 7 milyona yaxın, bu infeksiyadan ölənlərin sayının 400 minə yaxın olduğunu bildirib. Dünən ÜST-yə daxil olmuş məlumata görə, sutka ərzində koronavirusa yeni yoluxanların sayı 136 min olub. Onlardan 75 faizi 10 ölkənin - əsasən Cənubi və Şimali Amerika, habelə Cənubi Asiya dövlətlərinin payına düşür. Bir sıra Şərqi Avropa və Mərkəzi Asiya ölkələrində də yoluxmaların sayı artmaqdadır.

ÜST-nin rəhbəri doktor Tedros Gebreyesus deyib: "Avropada koronavirusla bağlı vəziyyət yaxşılaşsa da, qlobal miqyasda işlər pisləşməyə doğru gedir.

## Ukrayna aviareyslərin bərpası üçün Azərbaycanla müzakirələr aparır

Ukrayna Xarici İşlər Nazirliyi ikitərəfli hava əlaqəsinin bərpası üçün bir sıra ölkələrlə aktiv müzakirələr aparır. Bu barədə "İnterfaks-Ukrayna" agentliyinə müsahibəsində Xarici İşlər nazirinin müavini Yevgeni Yenin deyib. Nazir müavininin sözlərinə görə, Ukrayna tezliklə Azərbaycan, Bolqarıstan, Gürcüstan, Türkiyə və Kiprə aviareysləri açma bilər. O bildirib ki, Ukrayna ilk olaraq koronavirusla bağlı epidemioloji vəziyyət nəzarətdə olan ölkələrlə aviareysləri bərpa edəcək.

# Uzaqgörən siyasətiniz sayəsində Azərbaycan çox uğurlar əldə edib!

## *Azərbaycan Prezidenti İlham Əliyevə vətəndaşlardan çoxsaylı minnətdarlıq məktubları gəlməkdə davam edir*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə vətəndaşlardan çoxsaylı minnətdarlıq məktubları gəlməkdə davam edir. SİA Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.***

Ağdam rayonundan məcburi köçkün Sabah Mustafayeva: "Hörmətli cənab Prezident, mən 30 ilə yaxındır ki, erməni işğalı nəticəsində öz elimdən, obamdan köçkün düşərək Göyçayda məskunlaşmışam. 2019-cu ildə Sizin göstərişinizlə Göyçay şəhərində məcburi köçkün və qaçqın ailələri üçün yaşayış binası tikilmişdir. Mən də həmin binada mənzillə təmin olunmağım üçün müraciət etmişdim. Müraciətimə baxıldıqdan sonra mənə çox sevindirici xəbər çatdırdılar. Mənə də o binadan mənzil verildi. Hörmətli cənab Prezident, bu ahıl yaşımda mənə belə sevinc bəxş etdiyinizə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Sizin və Mehriban xanımın qayğıkeşliyinizə və humanistliyinizə görə bir ana kimi alnınızdan öpürəm.

Şirvan şəhərindən Mələk Əkpərzadə: "Möhtərəm cənab Prezident, dünyanın ən təhlükəli bəlasına çevrilmiş koronavirus pandemiyasına qarşı Sizin rəhbərliyinizlə ölkəmizdə aparılan mübarizənin dövlətimizi və xalqımızı bu dəhşətli xəstəliyin ağır sınağından çıxaracağına uğurla inanırıq. Sizin düşünülmüş, uzaqgörən siyasətiniz sayəsində Azərbaycan çox uğurlar əldə edib və çətinliklərə sinə gərib. Pandemiyanın ilkin mərhələsində verdiyiniz hər bir qərar, həyata keçirdiyiniz bütün tədbirlər qısa bir zamanda öz müsbət nəticəsini göstərdi. Bu gün yoluxma hallarının çox olmasına baxmayaraq, əminik ki, həyata keçirilən tədbirlər nəticəsində bu bəladan tamamilə qurtulmaq mümkün olacaqdır. Siz ən ağır günlərdə xalqı düşünməklə, onun yanında olmaqla əsl lider kimi öz müqəddəs missiyanızı bir daha yerinə yetirdiniz. Biz Sizə həmişə inanmışıq və indi də inanırıq. Möhtərəm Prezident, ölkəmizin inkişafı, xalqımızın xoşbəxt gələcəyi naminə atdığınız hər bir addımda Sizə uğurlar arzulayıram. Siz xalqa arxalandığınız kimi, xalqımız da hər zaman Sizə arxalanır".



Bakının Binəqədi rayonundan Elnarə Rəşidova: "Möhtərəm cənab Prezident, bütün dünyanı cənginə alan COVID-19 pandemiyası bizim ölkədən də yan keçmədi. Amma Sizin dəstəyinizlə görülən işlər sayəsində ölkəmiz digər ölkələrlə müqayisədə az itki verdi. Siz COVID-19 pandemiyası dövründə böyük fədakarlıq göstərərək, insanların həm maddi, həm də mənəvi ehtiyaclarının ödənilməsi, əhalinin sağlamlığının qorunması istiqamətində uğurlu işlər görürsünüz. Siz koronavirusun yayılmasının ilk günündən başlayaraq vətəndaşların yanındasınız, onlara kömək göstərirsiniz. Cənab Prezident, bir daha əmin olduq ki, ən çətin günlərdə güvənə biləcəyimiz rəhbərimiz var. Azərbaycan xalqı Sizi daim dəstəkləyir. Allah Sizi və xalqımızı qorusun!".

Mingəçevir şəhərindən Azər Mahmudov: "Çox hörmətli Prezident, cənab Ali Baş Komandan, hətta dünyanın ən inkişaf etmiş dövlətlərinin belə mübarizə aparmaqda çətinlik çəkdikləri bu xəstəliyin sürətlə yayıldığı bir vaxtda Sizin uzaqgörən siyasətiniz və düzgün qərarlarınız nəticəsində Azərbaycan xalqı əmin-amanlıq içərisində yaşayır. Buna görə ailəmizin adından Sizə təşəkkür edirəm. Əlbəttə, Sizə nə qədər təşəkkür etsək, yenə də azdır. Bu sözləri böyük qürur hissi ilə yazıram. Sizinlə fəxr edirik. Allah Sizi qorusun!".

Şəmkir şəhərindən Sabir İbrahimov və Rahilə İbrahimova yazırlar: "Çox hörmətli cənab Prezident, bəşəriyyəti əngınə almış qorxunc pandemiya ilə mübarizədə tibbin ən inkişaf etdiyi ölkələrin aciz qaldığı, bəzi dövlətlərin bu virusa biganə yanaşdığından çətin vəziyyətə düşdüyü halda, Sizin əsl vətəndaşlıq nümunəsi göstərərək xalqın yanında olmağınız bizləri qürurlandırır. Əhalinin sağlamlığının qorunmasının ön plana çəkilməsi, Sizin uzaqgörən siyasətinizlə təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi bu pandemiyadan daha az itkilərlə çıxmağımıza zəmin yaradıb. Möhtərəm cənab Prezident, Sizin ölkəmizi COVID-19 virusundan qorumaq üçün atdığınız hər addımınızı bir ailənin iki həkim üzvü olaraq alqışlayır və xalqımızın sağlamlığı naminə verdiyiniz tapşırıqları səngərdəki bir əsgər kimi hər zaman sevə-sevə yerinə yetirəcəyimizə söz veririk.

Siz həqiqətən vətəndaşı onun özündən daha çox düşünürsünüz. Əziz və qayğıkeş Prezidentimiz, Şəmkir sakinləri də Sizə - qəlbi daim xalqı ilə döyünən rəhbərə hər zaman dəstək olacaqlar. Biz fəxr edirik, qürur hissi keçiririk ki, Sizin kimi Prezidentimiz var. Uca Tanrı Sizi qorusun!".

Lənkəran şəhərindən Sehran Şükürov, Ceyhun Rzayev, Səxavət Bağırov, Azər Abdullazadə və Ceyhun Cəfərov yazırlar: "Əziz Prezidentimiz, Sizin Lənkərana göstərdiyiniz doğma münasibətiniz biz sakinlərə hədsiz qürur verir. Fəxr edirik ki, Sizin kimi müdrik, qayğıkeş dövlət başçımız var. Sizin tapşırıqlarınıza uyğun olaraq, şəhərimizin küçələrində asfaltlama işləri aparılır. Bizim yaşadığımız Füzuli, Kələntərlilər, Vaqif Nağıyev küçələri də asfaltlanıb və abadlaşdırılıb. Sizin qayğınız sayəsində indi Lənkəran şəhərinin hər tərəfi səliqəli, təmiz görünür. Cənab Prezident, bu işlər, bu qayğı könlümüzü açır, belə bir vaxtda bizə ruh verir. Biz Sizdən çox razıyıq. Allah Sizdən razı olsun!".

Ağcabədi rayonunun Cəfərbəyli kəndindən müəllim Səbuhi Atakişiyev: "Hörmətli cənab Prezident, dünyanı əngınə alan COVID-19 pandemiyası təəssüf ki, Azərbaycandan da yan keçmədi. Sizin rəhbərliyinizlə dövlət və hökumət orqanları tərəfindən görülən ardıcıl və səmərəli tədbirlər nəticəsində ölkə vətəndaşlarının bu təhlükəli virusa yoluxma riskini minimuma endirmək mümkün oldu. Cənab Prezident, bu həssas dönəmdə xalqla həmrəy olduğunuza, ən başlıcası isə Ağcabədi rayonuna yeddinci də-

# Uzaqgörən siyasətiniz sayəsində Azərbaycan çox uğurlar əldə edib!

## *Azərbaycan Prezidenti İlham Əliyevə vətəndaşlardan çoxsaylı minnətdarlıq məktubları gəlməkdə davam edir*

fə səfər etdiyinizə görə Sizə minnətdarlığımızı bildiririk. Rayonumuzda "ASAN xidmət" mərkəzinin açılışında könüllülər qarşısında məzmunlu çıxışınızı yüksək dəyərləndiririk. Biz gənclər hesab edirik ki, Sizin Qarabağ torpaqlarına hər gəlişiniz bizi işğal edilmiş ərazilərimizin geri qaytarılmasına səsləyir. Hörmətli cənab Prezident, Sizin "Biz birlikdə güclüyük!" çağırışınız bu gün xalqımızın həmrəylik şüarına çevrilib. Biz Sizə inanır, güvənir və arxalanırıq. Tanrı Sizi qorusun!".



Bakı şəhərindən Elşən Əlizadə: "Hörmətli cənab Prezident, Sizin prezidentliyiniz dövründə Azərbaycan çoxlu sayda uğur əldə edib, ölkəmiz dünyanın inkişaf etmiş dövlətləri arasında öz layiqli yerini tutub, iqtisadi, siyasi sferalarda, xüsusilə də sosial sahədə mühüm nailiyyətlər əldə edilib, iqtisadi çətinliklərin öhdəsindən mətinliklə gəlib. Bu gün COVID-19 virusunun bütün dünyaya yayılaraq kütləvi insan tələfatına gətirib çıxardığı bir zamanda Sizin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xalqımızı bu təhlükədən qorumaq məqsədilə uzaqgörənliklə gördüyünüz bütün tədbirləri bəyənir və dəstəkləyirik. Son illərdə Sizin rəhbərliyinizlə ölkəmizdə əldə edilən nailiyyətlər göz önündədir. Biz xalq olaraq keçmişi də görmüşük, bu günü də görürük. Əlbəttə ki, fərq çox böyükdür. 1990-cı illərin əvvəllərində ölkəmizdə hökm sürən xaosu, özbaşınalığı indi tərəqqi, yüksək rifah əvəzləyib. Bunu xarici ölkələrin dövlət və ictimai xadimləri dəfələrlə qeyd edib, nüfuzlu beynəlxalq təşkilatların hesabatları göstərib. Azərbaycanda hökm sürən iqtisadi sabitlik, əmin-amanlıq, dini, milli-mənəvi dəyərlərə göstərilən qayğı nəticəsində möhkəmlənən tolerant mühit digər dövlətlərə nümunədir. Müstəqil Azərbaycan dövlətinin siyasətini, buradakı əmin-amanlığı bəyənməyən, düşmən dəyirmanına su tökən, onların və Azərbaycanda böhran, tənəzzül, qarşıdurma yaratmağa çalışan qüvvələrin maliyyə resurslarından bəhrələnən bu ünsürlər ən böyük nifrətə layiqdirlər".



# 15 iyun - Xalqın şərəf və xilas tarixi

***T**ariximinə Milli Qurtuluş Günü kimi daxil olmuş 15 iyun sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gündür. Ümummilli Liderimiz Heydər Əliyevin 1993-cü il iyunun 15-də yenidən hakimiyyətə qayıttması xalqımızın çoxəsrlik tarixinə taleyüklü möhtəşəm siyasi hadisə kimi daxil oldu. Söz yox ki, azadlıq və müstəqillik həm ayrıca bir vətəndaş üçün, həm də bütöv xalqlar, millətlər üçün ən müqəddəs, ən şirin və əvəzolunmaz bir nemətdir. Biz - Azərbaycan xalqı olaraq uzun illər boyunca azadlığımızın, müstəqilliyimizin yolunu gözləmiş, bu yolda qəhrəmanlıq salnamələri yazaraq mübarizə aparmış, şəhidlər vermişik. Bu baxımdan, nəticəyə gəlmək mümkündür ki, əgər azadlığı, müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq bir o qədər mürəkkəb və ağır amildir.*



**Məşhur Məmmədov, Milli Məclisin deputatı**




## *27 il öncə Ulu Öndər Heydər Əliyev qətiyyəti Azərbaycanı dünya xəritəsindən məhv olmaq təhlükəsindən qurtardı*

Ona görə də bizlər 15 iyun barədə düşüncələrimizi bölüşərkən, nəticəyə gəlirik ki, bu tarix Azərbaycan xalqının gələcək həyatını müəyyən edən böyük başlanğıcların əsası olan bir gündür. Biz azərbaycanlı olaraq bu müstəqilliyimizi göz bəbəyimiz kimi qorumalıyıq. Çünki ilk növbədə vətəndaşlıq borcumuz bizə bunu diktə edir. Məhz bu tarixi yaradan isə Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqına arxa, dayaq olan BÖYÜK ŞƏXSİYYƏT Heydər Əlirza oğlu Əliyevdir!

### Ulu Öndər Heydər Əliyev: "1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı"

1991-ci il oktyabrın 18-də Azərbaycan XX əsrdə ikinci dəfə dövlət müstəqilliyini elan etdi. Təəssüf ki, müstəqilliyin ilk illərində dövlətin idarəçilik sükanı arxasında xalqın qüvvələrini bir yerə cəmləşdirə biləcək qüdrətli bir lider yox idi. Həmin dövrdə Azərbaycan ərazilərinin davamlı işğalı, getdikcə gərginləşən siyasi vəziyyət, əhalinin günbəgün ağırlaşan sosial durumu ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir LİDERƏ ehtiyac olduğunu şərtləndirirdi. Cəmiyyətin bütün təbəqələri əmin idi ki, yenicə müstəqillik qazanmış ölkəni düşmüş olduğu ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Ulu Öndər Heydər Əliyevdir! Əslində, bu, bütün xalqın ürəyinin səsi idi. Xalqımız Heydər Əliyevin ətrafında sıx birləşməklə öz gələcək taleyini özü həll etmək niyyətində idi.

Həqiqətən də sübut olundu ki, müstəqilliyi qoruyub saxlamaq o müstəqilliyi əldə etməkdən qatqat çətindir

Ulu Öndər Heydər Əliyev 15 iyun tarixi barədə danışakrən vurğuylayıb ki, bu hadisə zərurətdən doğan bir faktor idi. Belə ki, 28 may Respublika Günü münasibəti ilə 2001-ci il mayın 26-da keçirilmiş tədbirdə bu barədə belə demişdir: "1991-ci ildə müstəqilliyi elan etmək çətin bir məsələ deyildi. Çünki bu, tarixi zərurətdən irəli gəlmiş bir hadisə idi. SSRİ dağılırdı, istəsən də, istəməsən də sən öz respublikanın aqibətini müəyyən etməli idin. Burada da müstəqillikdən savayı başqa yol yox idi. Amma bu müstəqilliyi qoruyub saxlamaq o müstəqilliyi əldə etməkdən qat-qat çətin bir vəzifə idi".

Müstəqillik yoluna qədəm qoymuş respublikamızın qarşısında yeni mərhələdə tarixi vəzifələr dururdu. Tarix bu vəzifələrin yerinə yetirilməsi üçün ölkənin intellektual, sosial - iqtisadi potensialından, ictimai-siyasi qüvvələrindən səmərəli istifadə olunmasını tələb edirdi. Heydər Əliyevin 2001-ci il 20 mart tarixli fərmanında bu barədə deyilir: "Təəssüf ki, 1991-1993-cü illərdə bu istiqamətdə bu barədə heç bir iş aparılmadı. Müstəqil Azərbaycan dövlətinin keçdiyi yeni mərhələdə ölkənin iqtisadi, siyasi maraqları, təhlükəsizliyi, ərazi bütövlüyünün təmin olunması ilə bir araya sığmayan daxili və xarici siyasəti müstəqil dövlətçiliyə, onun sonrakı taleyinə ağır zərbələr vurdu. Azərbaycanda Ermənistanın təcavüzü ilə yanaşı, daxili ictimai sabitlik də pozulmuş, müxtəlif qanunsuz silahlı dəstələr yaradılmış və ölkənin daxilində qızğın hakimiyyət çəkişməsi başlanmışdı".

Müstəqilliyin əldə olunmasında Yeni Azərbaycan Partiyasının əvəzsiz xidmətləri böyükdür

Belə bir mürəkkəb şəraitdə Naxçıvanda yaşayan Heydər Əliyev 1991-ci il sentyabrın 3-də Muxtar Respublikanın Ali Məclisinə sədr seçildi. Heydər Əliyevin nüfuzu nəinki Naxçıvanda, bütün Azərbaycanda günbəgün artırdı. Bundan qorxuya düşən AXC-Müsavat hakimiyyətinin silahlı qüvvələri 1992-ci il oktyabrın 24-də Naxçıvanda çevriliş etməyə, Heydər Əliyevi tutduğu vəzifədən devirməyə cəhd göstərdilər. Lakin xalq öz böyük oğlunu müdafiə etdi, onunla birlikdə olduğunu bir daha sübuta yetirdi. İlk dövlət çevrilişinə cəhdin qarşısı alındı. Belə bir şəraitdə xalqın gələcək taleyinə biganə qala bilməyən insanlar 1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyasının (YAP) təsis konfransını keçirdilər. O dövrdə YAP-ın yaranması tarixi zərurət idi və Azərbaycanın dünyada tanınmış, dövlətçilik təcrübəsi olan liderə ehtiyacı var idi. Bu Lider Heydər Əliyev idi və hamı bu həqiqəti bütün varlığı ilə dərk edirdi. Ona görə də YAP Azərbaycanın bütün bölgələrində böyük sürətlə yaranır və təşkilatlanır, Heydər Əliyev siyasətini təbliğ edirdi. Ancaq bu ərəfələrdə AXC-Müsavat iqtidarının günahı üzündən Gəncədə qardaş qanı töküldü. O günlərdə Gəncədə ardı-arası kəsilməyən mitinqlər keçirilir, hadisələrə siyasi qiymət verilməsi tələb edilirdi. Belə bir gündə - iyunun 5-də Heydər Əliyevin rəhbərlik etdiyi Naxçıvan Ali Məclisi hadisə ilə əlaqədar bəyanat verdi. Belə bir vaxtda Heydər Əliyevin Bakıya gəlişi Respublika əhalisində gələcəyə böyük ümidlər yaratdı. Hadisələrin bu fonunda xarici havadarları tərəfindən himayə olunan separatçı qüvvələr cənubda "Talış-Muğan Respublikası" elan etməyə səy göstərirdilər. Şimalda da bu cür qüvvələrin fəallığına təkan verilirdi. Belə bir vaxtda möhtərəm Heydər Əliyevin Bakıya gəlişi respublika əhalisində gələcəyə böyük ümidlər yaratdı. Tezliklə Milli Məclisdə Gəncə hadisələrinə hüquqi-siyasi qiymət verildi. Qardaş qırğınına meydan açanlar öz layiqli cəzalarını aldılar.

1993-cü il iyunun 15-də Heydər Əliyev ölkənin ali qanunvericilik orqanına Sədr seçildi. Həmin iclasda Ulu Öndər çıxış edərək tarixi nitqini söylədi: "...Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm... Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm. Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm"

Bu tarixi qayıdış sözün həqiqi mənasında Azərbaycan dövlətçiliyinin və millətimizin qurtuluşu idi. "Buna görə də xalqın müxtəlif təbəqələrinin arzu və istəyini nəzərə alaraq, 1997-ci il iyunun 17-də 15 iyunun Milli Qurtuluş Günü elan edilməsi təklifi ilə çıxış edəndə deputatlar təklifimi dərhal müdafiə etdilər. 10 gün sonra - iyunun 27-də parlamentimiz tarixi qərar qəbul edərək 15 iyunu Azərbaycan xalqının Milli Qurtuluş Günü elan etdi"- Ulu Öqdər Qurtuluş Gününün elan edilməsi ilə bağlı çıxışında bildirmişdir. Görkəmli dövlət xadimi, bütün türk dünyasının ən nadir tarixi simalarından sayılan Heydər Əliyevin rəhbərliyi ilə respublikamız qədim İpək Yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz xətlərinin çəkilişi kimi qlobal layihələrin fəal iştirakçısına və təşəbbüskarına çevrildi. Həyatın bütün sahələrində tərəqqi və dirçəliş baş verdi. Heydər Əliyev dühasının xidmətləri olan bu nailiyyətlər Azərbaycan xalqının müstəqilliyini məhv olmaqdan qurtardı və bu müstəqilliyi daimi, əbədi, sarsılmaz, dönməz etdi.

Ona görə də biz əminliklə vurğulayırıq ki, Azərbaycanın tərəqqisi və inkişafı, dünya dövlətləri arasında xüsusi əhəmiyyətilə seçilməsi Ulu Öndər Heydər Əliyev siyasətinin məntiqi nəticəsidir. Azərbaycan bir çox mötəbər beynəlxalq təşkilatlarda söz sahibinə çevrilib. Bəli, bütün bunların əsas mənbəyi isə məhz 15 iyun tarixindən doğan reallıqlardır.

Fürsətdən istifadə edərək mən də qürurlu azərbaycanlı kimi bütün xalqımızı qarşıdan gələn gələn bayramlarımız münasibəti ilə ürəkdən təbrik edirəm, BAYRAMLARINIZ MÜBARƏK BÖYÜK VƏ QÜDRƏTLİ AZƏRBAYCAN XALQI!

# 15 İYUN - MİLLİ QÜRUR TARİXİMİZ

***Sirr deyil ki, hər bir xalqın milli-mənəvi irsini, əxlaqi dəyərlərini qoruyub saxlamaq, genetik yaddaşını, tarixi kimliyini, özünəməxsusluğunu gələcək nəsillərə ötürmək kimi çətin missiya onun taleyində müstəsna rol oynamış fenomenal şəxsiyyətlərin fəaliyyəti ilə bağlı olmuşdur. Bu mənada, Ulu Öndər Heydər Əliyev də Azərbaycanın milli-mənəvi dəyərlər sistemini qoruyan, inkişaf etdirən və onu milli özünüdərkin həlledici amilinə çevirən fenomenal lider kimi xalqımızın qəlbində yaşayır.***

Belə ki, hələ sağlığında Ümummilli Lider zirvəsinə ucalmış Ulşu Öndər Heydər Əliyev böyük fədakarlıqlar hesabına qurub-yaratdığı dövlətin sarsılmazlığını, demokratik yüksəlişini, Azərbaycanın müstəqilliyinin əbədiliyini, daimiliyini, dönməzliyini təmin etmişdir. Bu gün Onun 1969-cu ildə Azərbaycanda siyasi hakimiyyətə gəlişini tarixi hadisə kimi qiymətləndirənlər öz qənaətlərində haqlıdırlar. Çünki rəhbər vəzifədə olduğu az bir müddətdə respublikada köklü dəyişikliklər baş vermişdir. Sovetlər zamanında hər bir tapşırığın mərkəzdən verildiyi və idarə olunduğu bir vaxtda geridə qalan, çıxılmaz sosial-iqtisadi vəziyyətdə olan Azərbaycanda insanların öləziyən ümidlərini ruh yüksəkliyi ilə əvəz edib bir məqsəd uğrunda birləşdirmək, gərgin təsərrüfat, tikinti-abadlıq, quruculuq işlərinə yönəltmək əsl qəhrəmanlıq, vətənə sədaqət nümunəsi, həm də bir tarix idi. İnsanlar həmin tarixi vərəqlədikcə Heydər Əliyev zəkasının, düşüncəsinin, müdrikliyinin böyüklüyünü bir daha hiss edir.

### 15 iyun - Azərbaycanın, bütöv bir xalqı məhv olmaq təhlükəsindən xilas tarixi

Yaxşı məlumdur ki, Heydər Əliyevin ikinci dəfə - 1993-cü ilin 15 iyun tarixində siyasi hakimiyyətə gəlişi, nəinki Azərbaycanı, bütöv bir xalqı məhv olmaq təhlükəsindən xilas etdi. Bu, həqiqətən də bir qurtuluş idi. 1993-cü ilin iyun hadisələrinə qiymət verməyi bacaran hər bir insan dərindən dərk edir ki, Ulu Öndər o dövrdə qardaş qırğınının, vətəndaş müharibəsinin qarşısını almağa həyatını təhlükəyə atmaqla, ölümündən çəkinməyərək nail oldu. Hakimiyyətdə olan AXC-Müsavat iqtidarının səriştəsizliyi, xalqı deyil, yalnız öz mənfəətlərini güdmələri, hər şeyi - ləyaqəti, şərəfi, vicdanı pula satmağı sonda Azərbaycanın öz müstəqilliyini itirmək təhlükəsi ilə qarşı-qarşıya qoydu. Talanmış dövlət



**KAMİL MİRZƏYEV, YAP Biləsuvar rayon təşkilatının sədri**

büdcəsi iqtisadiyyatı çökdürmüş, daxili və xarici qüvvələr isə artıq separatçılıq vasitələri ilə ölkəni bölən "xəritələrini" hazırlamışdılar. Qarabağ cəbhəsində isə torpaqlarımız ard-arda erməni işğalçılarına peş-kəş edilirdi. Azərbaycan xalqı dövlətçiliyini itirmək təhlükəsi fonunda fəlakətlər, tüğyanlar burulğanında məhv olmaq üzrə idi. Bütün bunlardan isə çıxış yolu tapmaq lazım idi. Xalqın Fenomen liderə ehtiyacı varıydı və O, HEYDƏR ƏLİYEV idi!

Bəli, bu, Heydər Əliyev ömrünün yeni bir qəhrəmanlıq tarixi idi. Vətənini və xalqını sonsuz məhəbbətlə sevən, andına, əqidəsinə sadiq olan, qətiyyəti, inamı, müdrikliyi ilə milyonları öz ətrafında birləşdirməyi bacaran, hadisələri düzgün qiymətləndirib reallıqlardan lazımi nəticə çıxaran Heydər Əliyev kimi vətənpərvər insan, siyasətçi yalnız bu tarixi yarada və yaza bilərdi. Məhz Onun ikinci dəfə hakimiyyətə gəlişi xalqı və dövləti bəlalardan qurtarmaqla yanaşı, yeni, müasir dövlətçilik təməlinin əsaslarını, yüksəlişini qoydu. Bu mənada, onu da vurğulamaq istərdim ki, Heydər Əliyev fəaliyyətinin 1993-2003-cü illəri də bir ömrün qızıl salnaməsidir. Azərbaycanı daimi müstəqil, azad, demokratik ölkə kimi görmək istəyən dahi şəxsiyyətin öz məqsədlərini uğurla həyata keçirdiyi illərin unudulmaz səhifələridir. Heydər Əliyev milli dövləti idarə etməyin beynəlxalq siyasi sistemlə ideal bağlılığını tapa bilən müstəsna siyasət ustalarındandır. Onun Azərbaycan dövlətçiliyi praktikasındakı bu nailiyyəti, formalaşdırdığı siyasi idarəetmə sistemində bu qaynaq məqamının tapılması - onun siyasi kursunun uğurla davam etdirilməsinin ən başlıca reallıqlarındandır.

Azərbaycanda siyasi hakimiyyətin Heydər Əliyevin yaratdığı dövlətçilik təməli üzərində inkişaf etdirilməsi, möhkəmləndirilməsi zərurəti üzərində düşünərkən təsdiqini tapmış belə bir həqiqəti dərk edirik ki, Heydər Əliyevin siyasi uzaqgörənliyinin zirvəsi onun özündən sonra siyasi kursunu hamıdan yaxşı davam etdirərək, Azərbaycanın müstəqilliyini hamıdan yaxşı qoruya biləcək, dövlətimizin inkişafını hamıdan yaxşı təmin edəcək yeni dövrün Liderini - İLHAM ƏLİYEVİ yetişdirməsi olmuşdur.

Azərbaycanı Qafqazın ən qüdrətli dövlətinə çevirmiş, ölkəsinin bütün sahələrdə qalibiyyət potensialını üzə çıxarmış Prezident İlham Əliyevlə Azərbaycan xalqı özünə ən etibarlı siyasi gələcək, mütərəqqi inkişaf yolunu seçdiyini təsdiqləyir.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın istər daxili, istərsə də xarici siyasətində əldə edilən hər bir uğur Ulu Öndər Heydər Əliyevin zəkasının təcəssümü, onun irsən qoyub getdiyi milli tərəqqi ideyalarının təzahürüdür. Onun 2003-cü ildə prezidentlik fəaliyyətinə başlaması Azərbaycanın tərəqqi və inkişaf yolu ilə irəliləməsində yeni mərhələ olmuşdur. Və bu gün Ulu Öndər Heydər Əliyevin siyasət məktəbinin layiqli yetirməsi olan Azərbaycan Prezidenti İlham Əliyevin böyük siyasətdə atdığı inamlı addımlar sayəsində ölkəmizdə təkcə sosial-iqtisadi sistemdə deyil, həm də siyasi və ictimai təsisatlarda əsaslı yeniləşmələr olmuş, səmərəli intensiv islahatlar aparılmışdır. Prezident İlham Əliyev çıxışlarında da bu məqamı vurğulayarkən deyib: "Bizim təcrübəmiz onu göstərir ki, Azərbaycanın seçdiyi yol düzgün yoldur. İqtisadi, siyasi və sosial islahatların paralel şəkildə aparılması Azərbaycanı hərtərəfli inkişaf etdirir, ölkəmiz üçün çox lazım olan sabitliyi möhkəmləndirir, ictimai-siyasi vəziyyətə müsbət təsir göstərir".

Beləliklə, biz bir daha əminliklə deyə bilərik ki, əldə edlən inkişaf və tərəqqi müstəqil Azərbaycan uğrunda və Heydər Əliyevin ölməz ruhu qarşısında fədakarlıqla çalışmağın nəticəsidir. Bizlər bu faktoru əsas götürərək Azərbaycanımızın çiçəklənməsi naminə Ulu Öndər Heydər Əliyev ideyalarının layiqli davamçısı cənab İlham Əliyevin ətrafında daha da sıx birləşəcəyik.

## Xalçaçılığın inkişafı ilə bağlı son illərdə görülən işlər bəhrəsini verir



Azərbaycanda dövlət tərəfindən xalçaçılığın inkişafına xüsusi diqqət və qayğı göstərilir. "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmuş, Xalça Muzeyi üçün müasir standartlara cavab verən bina inşa edilmiş, rayonlarda yerli xalçaçılıq ənənələrini əks etdirən xalça muzeyləri yaradılmışdır. Bu sahəyə göstərilən yüksək diqqət və qayğının nəticəsidir ki, Azərbaycan Prezidentinin 28 fevral 2018-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" təsdiq olunmuşdur. Sadalananlar Azərbaycan dövlətinin xalçaçılıq sənətinə olan diqqət və qayğısının nəticəsidir, xalçaçılığın həm tarixi-mədəni, həm də sosial-iqtisadi faktor kimi yüksək qiymətləndirməsinin önəmli nümunəsidir. "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin yaradılması bu sahədə görülən işlərin davamıdır.

Azərbaycan Prezidenti İlham Əliyevin məlum Sərəncamı ilə "Azərxalça" Açıq Səhmdar Cəmiyyəti yaradılmış və xalçaçılığın inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirmişdir. Burada xalçanın toxunuşu ilə yanaşı, eyni zamanda, onun xammalının hazırlanması, emalı, bərpası, ticarəti də mühüm əhəmiyyət kəsb edir. Xalçaçılığın inkişafı ilə bağlı son illərdə görülən işlər öz bəhrəsini verir. Bu sahənin inkişafına xüsusi diqqət və qayğı sayəsində, artıq bir çox bölgələrdə xalça fabrikləri istifadəyə verilib və bəzi regionlarda yeni fabriklərin açılması istiqamətində işlər gedir. Qeyd edək ki, dövləti başçısının sərəncamlarına uyğun olaraq, yaradılması nəzərdə tutulmuş 31 xalça müəssisəsindən 13-ü istifadəyə verilib, 8-i istifadəyə hazırdır. Daha 10 fabrikin tikintisi layihələndirilir. Bundan başqa yunəyirici-boyaq fabrikinin, hazır xalçaların emalı mərkəzinin, yun və boyaq tədarükü məntəqələrinin yaradılması istiqamətində mühüm işlər görülür. Bu günlərdə bildiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iştiraki ilə "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Tərtər filialının açılışı oldu.Burada müxtəlif ölçülü 43 dəzgahda Azərbaycan xalçaları toxunacaq və əsas üstünlük orijinal Qarabağ xalça çeşnilərinə veriləcəkdir. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikamızın ayrı-ayrı bölgələrindən toplanılan qədim və orijinal xalçalar əsasında "Azərxalça"nın rəssamları tərəfindən hazırlanıb. Filialda 150 nəfər toxucunun və 14 nəfər inzibati-təsərrüfat işçisinin çalışması nəzərdə tutulub və hazırda 85 nəfər, o cümlədən 71 nəfər toxucu və 14 nəfər inzibati-təsərrüfat işçisi işlə təmin edilib. Əlbəttə ki, bu fabriklərin açılması, xüsusilə, qadınların işlə təmin olunmasında müstəsna əhəmiyyətə malikdir.

Dünyada xalça istehsalçısı olan ölkələr arasında xalça çeşnilərinin elektron variantının hazırlanması, ilk dəfə olaraq, məhz Azərbaycanda həyata keçirilir. Xalçaçı-rəssamlar tərəfindən hazırlanmış elektron çeşnilər Bakı, Qarabağ, Naxçıvan, İrəvan, Təbriz, Şirvan, Quba, Gəncə, Qazax-Borçalı qrupları üzrə kataloqlaşdırılır. Daha çox dünya muzeylərində və şəxsi kolleksiyalarda saxlanılan nadir Azərbaycan xalça və xalça məmulatları əsasında çeşnilərin hazırlanmasına üstünlük verilir. Hər bir çeşni öz-özlüyündə xalça haqqında ilkin informasiya bazasıdır. İndiyədək 600-dən çox xalça çeşnisi hazırlanmış və onların əsasında "Azərxalça"nın filiallarında xalçalar toxunmuşdur. Hazırda Azərbaycan xalça sənəti özünün əsl dirçəliş dövrünü yaşayır. Prezident İlham Əliyevin həmin sahənin inkişafı ilə bağlı verdiyi tapşırıqlar və imzaladığı sərəncamlar bu baxımdan xüsusi əhəmiyyətə malikdir.

*Nəzakət ƏLƏDDİNQIZI*

## "Nar" alternativ enerji mənbəyi ilə çalışan yeni baza stansiyası istifadəyə verib

"Nar" alternativ enerji sistemindən qidalanan ilk baza stansiyasını istifadəyə verib. Bakı şəhəri Səngəçal ərazisində quraşdırılmış baza stansiyası günəş panellərindən əldə olunan enerji ilə çalışır. Yeni baza stansiyası vasitəsilə kəsintisiz şəbəkə təcrübəsini, yəni enerji təminatının daimiliyini təmin etmək üçün hibrid günəş sistemindən istifadə olunur. Belə ki, sahədə quraşdırılan əlavə elektrik batareyaları günəş şüalarının azaldığı zaman, buludlu hava şəraitində, axşam və ya gecə saatlarında ehtiyat enerji rolunu oynayaraq fasiləsiz təchizatı qorumağa imkan verir.

Alternativ enerji mənbəyi olaraq günəş enerjisindən istifadənin ətraf mühit üçün bir çox faydaları var. Panellərə texniki qulluq prosesinin zərərsiz olması, bata-



reyaların uzunömürlülüyü və davamlılığı ətraf mühitin qorunmasına öz müsbət töhfəsini verir. Daha dayanıqlı "yaşıl" həllər üzərində çalışan "Nar", bərpaolunan enerji mənbələrindən istifadəni artırmaq üçün gələcək perspektivləri də dəyərləndirir.

Hal-hazırda mobil operatorun 4G və 4.5G texnologiyalı baza stansiyaları ölkənin 54 regionunda əhalini yüksəksürətli internet və zəng xidmətləri ilə təmin edir. "Nar" şəbəkəsi ölkə ərazisinin 97,7%-ni əhatə edir və 8700-dən artıq baza stansiyası ilə 2.3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. Daha ətraflı məlumat nar.az səhifəsindən əldə etmək olar.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Mobil operator şəbəkə keyfiyyətinin davamlı təkmilləşdirilməsi strategiyası çərçivəsində səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını və səsin təmiz ötürülməsini təmin edən "HD-Voice" (High Definition Voice) xidmətini təqdim edib. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.

# “Müxalifətin fəallaşması Paşinyan üçün bir başqa problemə çevrilib”



**“Ermənistanda bir gündə 3 güc naziri - polis rəisi Arman Sarkisyan, baş qərargah rəisi Artak Davtyan və milli təhlükəsizlik xidmətinin direktoru Eduard Martirosyan istefa veriblər”. Bunu SİA-ya politoloq Elxan Şahinoğlu deyib. Politoloqun sözlərinə görə, Baş nazir Nikol Paşinyan artıq bu vəzifələrə yeni rəisləri təyin edib: “Onik Qasparyan baş qərargah rəisi, Argişti Kəramyan milli təhlükəsizlik xidmətinin direktoru, Vahe Kazaryan polis rəisi təyin ediliblər.**

Bu təyinatlar o deməkdir ki, Paşinyan istefalara hazır idi və bəlkə də 3 istefanın bir gündə elan edilməsi onun təşəbbüsü ilə reallaşıb. Çünki, Paşinyan narazı qaldığı güc nazirlərini ayrı-ayrı vaxtlarda istefaya göndərsəydi, bu erməni cəmiyyətində daha çox suallar və hökumətin dağıldığı görüntüsü yaradacaqdı. Belə də isə Paşinyan tələsik həm 3 istefanı bir gündə həyata keçirdi, həm də istefa verənlərin yerini dərhal doldurdu. Demək, Paşinyan yeni təyin ediləcək şəxsləri xeyli əvvəl özü üçün müəyyənləşdiribmiş.

## Bəs istefalara səbəb nə ola bilərdi?

Böyük ehtimalla baş qərargah rəsinin istefası orduda və cəbhə bölgəsində yaranan durumla bağlıdır. Paşinyan mövcud vəziyyəti nə qədər gizli saxlamağa çalışsa da, ordudakı və cəbhə bölgəsindəki vəziyyət onu narahat edir. Azərbaycan ordusunun Naxçıvan istiqamətində irəriləməsi və Dağlıq Qarabağla Ermənistanı birləşdirən strateji yola nəzarət etməsi Paşinyanı və onun komandasını narahat etməyə bilməzdi. Bu mövzu Ermənistan müxalifətinin də ciddi müzakirə predmetinə çevrilib və Paşinyana qarşı istefa şüarlarında Azərbaycan ordusunun üstünlük qazandığı da vurğulanır. Belə vəziyyətdə istər-istəməz baş qərargah rəsinin istefası aktuallaşırdı. Ancaq Paşinyan bu vəzifəyə kimi təyin edirsə-etsin, Ermənistan ordusunun üstünlük qazanması keçmişdə qaldı, işğalçı ordu kasad hərbi texnika ilə uzağa gedə bilməyəcək və yeni itkilərə hazırlaşmalıdırlar.

Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi Artak Davtyanın istefası həm də fövqəladə vəziyyət dövründə oğlunun toyu ilə bağlıdır. Həmin toyda yüzdən çox qonaq iştirak edib. Paşinyan hamıya ağıl qoyur ki, bir yerə toplaşmayın, maska taxın, ancaq öz qərargah rəisi bütün bu qaydaları heçə sayaraq oğluna toy edib. İstefada bu amilin də rol oynadığını vurğulamaq olar. Ermənistan polis rəsinin istefanın da koronavirusla müəyyən əlaqəsi var. Ermənistanda koronavirusa yoluxan polislərin sayı yüzlərlədir. O ki qaldı, milli təhlükəsizlik xidmətinin rəisi Eduard Martirosyanın istefasına, bu bir qədər gözlənilməz idi. Çünki Paşinyan Martirosyanın vəzifəsinin öhdəsindən gələcəyinə inanırdı.

Nikol Paşinyan 2019-cu ilin sentyabrında Eduard Martirosyanı milli təhlükəsizlik xidmətinin rəsini təyin edərkən bunları demişdi: “Martirosyan uzun illərdir təhlükəsizlik xidməti sahəsində çalışır, təyinatda bu çox vacib amildir. Ermənistan Milli Təhlükəsizlik Xidməti oturuşmüş təşkilatdır. Buna baxmayaraq, qurum üzvləri peşəkarlıqlarını artırmalıdırlar”.

Martirosyan Paşinyanın etibarını doğruldacağını bu sözlərlə ifadə etmişdi: “20 ildir çalışdığım təşkilatın adından demək istəyirəm ki, əlimizdən gələni edəcəyik ki, Ermənistanın və Artsaxın sabitliyini və təhlükəsizliyini qoruyaq”.

Demək, Martirosyan verdiyi vədi yerinə yetirə bilməyib ki, Paşinyan onu istefaya göndərməyə qərar verib. Ailəsi ilə birlikdə vurisdan qurtulduğunu elan edən Paşinyan indi ölkəsini necə qurtaracağı barədə qarabara düşünməlidir. Özünün dediyinə görə Ermənistanda ən azı 100 min virus daşıyıcısı var. Bu əhalisi 3 milyondan da az Ermənistan üçün əsl faciədir. Üstəgəl də ciddi karantin şərtləri onsuz da çarəsiz duruma düşən istisadiyyatı taqətdən salıb. Bu da azmış kimi istefalar və müxalifətin fəallaşması Paşinyan üçün bir başqa problemə çevrilib.

Mövcud vəziyyəti Ermənistanın Vatikandakı keçmiş səfiri Mikael Minasyan belə təsvir edib: “Paşinyan koronavirusla mübarizədə məğlub olub və bununla ölkəni biabırçı duruma salıb. Ermənistanın səhiyyə naziri virusla mübarizə aparmaq əvəzinə Gürcüstanla aramızı vurub, Paşinyan isə Ermənistanı üçüncü ölkələr sırasına sürükləyib, biz Nigeriyadan da geri qalırıq. O bunu etiraf etmək əvəzinə “xalq günahkardır” əməliyyatına başlayıb. Bircə günahkar var - Paşinyan”.

***Ceyhun Rasimoğlu***

# Ermənistan qaz məngənəsində: çıxış yolu yoxdur




*“Hraparak” nəşri: “Qazpromla” razılaşmalar pozularsa, Ermənistanı dayanıqlı olmadığına görə çoxmilyonluq cərimələr gözləyir ki, bu da bütövlükdə ölkəni kollapsa sürükləyə bilər”*



***Rəsmi İrəvan Rusiyaya olan bütün ümidlərini demək olar ki, itirib. Belə ki, Kremlin bundan sonra da ermənilərə qəzəbi fonunda onları imkanlar çərçivəsində yedirdəcəyi, üstəlik havayı, yəni çox ucuz qiymətlə yanacaqla da təmin edəcəyi məsələsi də həmin ümidləri tükəndirib. Məhz bu baxımdan, İrəvan indi də Aşqabad və Tehranla danışıqlara başlamaq qərarını verib. Artıq Ermənistanın əsas problemlərindən biri də məhz mavi yanacaq məsələsidir və bu ölkə ödənişlərini nağd deyil, hansısa aktivləri hesabına edə biləcəyini düşünür. Lakin qarşıda heç bir çıxış yolu görünmür və bunu erməni ekspertləri və KİV-ləri də etiraf edirlər. Əsa günahkar kimi isə bilavasitə Nikol Paşinyan hökumətinin yarıtmaz siyasəti göstərilməkdədir.***

Rusiya Avropaya satdığı qazın qiymətindən iki dəfə artığnı Ermənistandan tələb edir

SİA xəbər verir ki, ölkənin xarici işlər nazirinin müavini Şavarş Koçanyan KİV-lərə açıqlamasında İranın sanksiyalar altında olduğunu deyərək, ondan qaz almağın qeyri-mümkün olduğunu etiraf edib. “Bu, qırmızı xətdir ki, onu keçmək olmaz. Lakin biz qazı digər əməliyyatlar vasitəsi ilə əldə etmək məqsədindəyik. Söhbət o iş birliyindən gedir ki, həmin əməliyyatlar İrana valyuta verəcək. Ermənistan isə İran qazını elektrik enerjisi verərək, barter yolu ilə alacaq”, deyən erməni nazir müavini Türkmənistan faktorunu da inkar etməyib və digər inandırıcı olmayan planlarını önə sürüb. Lakin...

Lakin bütün bu kimi addımlar bir məqsədi daşımaqdadır - rus qazını əvəzləmək. Çünki Rusiya Avropaya satdığı qazın qiymətindən iki dəfə artığnı Ermənistandan tələb edir. Bu arada onu da xatırlatmaq olar ki, Avrasiya İqtisadi İttifaqının iclaslarının birində Rusiya Federasiyasının prezidenti Vladimir Putin açıq şəkildə bəyan etmişdi ki, Ermənistan və Belarus ixrac edilən qazın tarif qiymətinin endirilməsinə ümid etməməlidirlər. Üstəlik, Kreml erməni və beloruslardan yerdə qalan borcları da tələb edir. Digər tərəfdən, əgər rus qazı Avropaya 87 dollara yaxın qiymətə satılırsa, Ermənistana 165 dollara satılır...

Armen Manvelyan: “Paşinyan hökuməti hər şeyi dağıtdı, hətta Moskvanın etimadını da itirdi”

Ermənistanın iqtisadi və energi təhlükəsizliyi məsələləri üzrə eksperti Armen Manvelyan isə belə hesab edir ki, ermənilər rus qazından çoxdan imtina etməliydilər. Əslində isə bu çox çətin məsələdir: “Son illərdə erməni-rus münasibətləri fonunda mövcud hakimiyyət o qədər səhvlər buraxıb ki, bunun üçün onilliklər lazım idi. Birincisi, bizdə enerji siyasəti olmalıdır ki, o da yoxdur. Əgər “yol xəritəsi” strategiyası mövcud deyilsə, yürüdülən siyasət gözlənildiyi kimi heç bir nəticə verməyəcək. Paşinyan hökuməti hər şeyi dağıtdı, hətta Moskvanın etimadını da itirdi.

İran qazının alınmasına gəlincə, burada da bir çox problemlər var. Çünki bu baş tutarsa, Ermənistanın bu dəfə ABŞ-la münasibətləri ağırlaşacaq. Hökumət özü-özünü küncə sıxışdırıb və yaranmış vəziyyətdən heç bir çıxış yolu tapa bilmir”.

Vaqe Davtyan: “Ermənistan özünün qaz nəqliyyatı diversifikasiyasını təmin edə biləcəkmi? Əlbəttə ki, yox”

Ermənilərin digər eksperti Vaqe Davtyan isə hesab edir ki, Ermənistan Rusiya qazından imtina edərək, İran qazını almamalıdır.

“2013-cü ilin dekabrında əldə edilmiş razılıq var ki, həmin sənədə əsasən Ermənistan Rusiya qazını 2043-cü ilə qədər almaq öhdəliyini daşıyır”, deyən erməni ekspert bildirib ki, bu məsələnin hüquqi tərəfidir və əgər mövcud razılıq sənədinə yenidən baxılacağı halda ermənilər rus qazından imtina edə bilərlər: “Lakin İran qazına keçərkən, Ermənistan özünün qaz nəqliyyatı diversifikasiyasını təmin edə biləcəkmi? Əlbəttə ki, yox. Nəyə görə? İran-Ermənistan qaz borusu həqiqətdə elə bir buraxılış qabiliyyətindədir ki, Ermənistanın təmin edə bilər. Bu kəmər ildə 2-3 milyard kubmetri təşkil edir. Biz ildə 2 milyard, ən yaxşı halda 2,2 milyard kubmetr qaz istifadə edirik. Yəni daxili təminat tam mənada ödənilə bilər. Lakin problem yalnız qazın idxalında deyil, Ermənistanın qaz nəqliyyatı sistemi yalnız “Qazprom Ermənistan” (Rusiya “Qazprom”unun qız şirkəti) vasitəsi ilə idarə olunmur, həm də Rusiyaya tabedir. Yəni biz qazı Rusiyadan, İrandan, Türkmənistandan idxal etsək belə, daxili tarifləri “Qazprom Ermənistan” müəyyən edəcək”. Maraqlıdır ki, eyni mövqeni Ermənistanın “Hraparak” qəzetinin analitikləri də bölüşürlər. “Qazpromla” razılaşmalar pozularsa, Ermənistanı dayanıqlı olmadığına görə çoxmilyonluq cərimələr gözləyir ki, bu da bütövlükdə ölkəni kollapsa sürükləyə bilər”, erməni nəşri yazıb.

***Rövşən RƏSULOV***

# Arman Tatoyan: “Nifrət ritorikası son həddə çatıb və qruplaşan insanlar bir-birlərini ləkələyir”



Görünən budur ki, insanlar daha çox bir-birlərini təhqir edəcək rəqabət aparırlar. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bunu erməni hüquq müdafiəçisi Arman Tatoyan bu gün jurnalistlərə verdiyi müsahibəsində mövcud nifrət ritorikasına istinadən söyləyib. “Bu gün təəssüf ki, nifrət, təhqir və ləkələmə ritorikası son həddə çatıb. Bu hal çox narahatlıq doğurur. Kimin nə etməsindən, məmur olub-olmamasından asılı olmayaraq onların bir-birini ləkələməsini və təhqir etməsini dayandırmaq lazımdır. Dövlət məmurları üçün məsuliyyət daha böyükdür”, deyə Arman Tatoyan bildirib.

O, qeyd edib ki, sağlam müzakirələrə şəbəkədə demək olar ki, artıq rast gəlinmir. “Göründüyü kimi, qruplara bölünən insanlar bir-birlərini ləkələyir, təhqir edir, lərzəyə gətirir, kimin-kimi daha çıx təhqir edəcəyi istiqamətdə yarışır, rəqabət aparırlar. Ombudsman, bu cür davranışların ictimai həyata keçməsində bir təhlükə gördüyünü də vurğulayıb. “Belə hallar artıq mövcuddur”, deyə Arman Tatoyan qeyd edib.

## Bakıda çoxmərtəbəli binada yanğın olub, 20 nəfər təxliyə olunub

Bakı şəhərinin Nizami rayonunda çoxmərtəbəli yaşayış binasının mansardında ümumi sahəsi 55 kvadratmetr olan mənzildə yanğın baş verib. Fövqəladə Hallar Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, hadisə nəticəsində evin 20 kvadratmetrlik hissəsi əşyaları ilə birlikdə yanıb.

Yanğın zamanı tüstülənmiş mənzillərdən 20 nəfər yanğınsöndürənlər tərəfindən təhlükəsiz əraziyə təxliyə olunub. Mənzil yanğından mühafizə edilib. Alov yanğından mühafizə bölmələri tərəfindən söndürülüb. Hadisə ilə bağlı müvafiq qurumlar tərəfindən araşdırma aparılır.

## Avtomobildən oğurluq edən şəxs tutulub

Avtomobildən 500 manat oğurlamaqda şübhəli bilinən Kürdəmir rayon sakini R.İsmayılov saxlanılıb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Binəqədi RPİ 6-cı PB əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində mayın 10-da rayon ərazisində “Niva” markalı avtomobildən 500 manat oğurlamaqda şübhəli bilinən Kürdəmir rayon sakini R.İsmayılov saxlanılıb.

# “Polisə qarşı qara yaxma kamaniyası radikal müxalifətin mətbəxində hazırlanıb”

*Müsahibimiz Demokratik Maarifçilik Partiyasının sədri, millət vəkili Elşən Musayevdir*



***- Elşən müəllim, şənbə və bazar günləri sərt karantin rejiminin tətbiq edilməsi zamanı polisin göstərdiyi yüksək xidmətə və peşəkarlığa kölgə salmaq üçün bəzi qüvvələr xüsusilə də, müxalifət qara yaxma kampaniyası aparırlar. Bununla bağlı nə deyə bilərsiniz?***

- Azərbaycan polisi hər zaman asayişin keşiyində durub, qanun çərçivəsində fəaliyyət göstərib, vətəndaşa münasibətdə ləyaqətlə, vicdanla, humanistcə davranıb. Karantin dövründə baş verən proseslərdə də polis öz işini icra edir. Çünki qanunun tələbi budur və əgər məlum hadisələrdən şou düzəltmək, bəhrələnmək istəyən hansısa radikal müxalif qrup polisi gözdən salmaq üçün qara yaxma kompaniyası aparırsa, daha dəqiqi buna cəhd edirsə, həmin qaraguruha və o qaraguruhun başında duranlara qarşı ciddi ictimai təpki olmalıdır, belə avantüristlərin cavabı cəmiyyət tərəfindən dərhal verilməlidir. Dərhal və dərhal! Polisi qorumaq lazımdır. Polisə dəstək lazımdır. Və bu dəstək bizim hər birimizin timsalında özünü ehtiva etməlidir. Necə olur ki, kiminsə başına bir bəla gələndə, çətinə düşəndə, özü üçün təhlükə görəndə dərhal 102-yə zəng edib polis çağırır, amma pandemiya dövründə sadəcə xidməti vəzifəsini şərəflə yerinə yetirdiyi üçün həmin polis hədəfə gəlir? Mənim qənaətim budur ki, polisə qarşı məlum qara yaxma kamaniyası radikal müxalifətin mətbəxində məqsədli şəkildə planlanıb və hazırlanıb. Əvvəldən mətnlər tərtib olunub və sonra sosial şəbəkələrə ötürülüb. Stimul vericiləri də bayaq qeyd etdiyim, haqqında danışdığım qaraguruh liderləridir. Bu adamlar hətta belə həssas məqamda da populizmdən, saxtakarlıqdan, yalandan, iftiradan əl çəkmirlər. Dünən Əli Kərimlinin feysbukda yazdığı statusa baxdım. Yenə cəfəngiyat dolu cümlələri bir-birinin ardınca sıralamışdı. Aydın görünür ki, polisi hədəfə alan təbəqə məhz bunlardır. Sadəcə həmin bədxahlar anlamırlar ki, belə addımlarla əslində xaotizmi, itaətsizliyi, anarxiyanı təbliğ edirlər. Anlamırlar ki, polisin kimsə ilə ədavəti, şəxsi-qərəzliyi yoxdur. O, sadəcə işini görür, qanuna, hüquqa riayəti təmin edir, asayişin keşiyində durur.

***- Avropanın bəzi ölkələrində və ABŞ-da polis zorakılığı adi hala çevrilib, Azərbaycanda isə polislər humanizm dəyərlərinə hörmət edən bir mövqe ortaya qoyur. Bəzi məkrli qüvvələrin Azərbaycan polisini gözdən salmağa cəhd edilməsi düşmən maraqlarına xidmət etdiyini demək olar?***

- Cəmil Həsənli bir dəfə də Amerikada baş verən son olaylardan danışsın da, niyə danışmır? Niyə bir addımlığında olan hadisələri qiymətləndirmir, amma neçə min kilometr o yandan buradakı hadisələrə şərh verir? Çünki Cəmil Həsənli orada nökərdir, buyruq quludur. Artıq-əskik danışsa yeni çıxan bığını qopararlar. Ona görə də ancaq Azərbaycan polisini hədəfə alır, ağlına gələni danışır, nifrinlər püskürür. Eyni sözlər Əli Kərimliyə də aiddir. Bu buqələmunların tək məqsədi aranı qarışdırmaq, polis-vətəndaş qarşıdurması yaratmaq, sabit siyasi sistemi zədələmək və Azərbaycanın uğurlarına kölgə salmaqdır. Amma bu arzularına, bu istəklərinə çata bilməyəcəklər. Çünki xalq da, cəmiyyət də Cəmil Həsənli kimi, Əli Kərimli kimi nadürüstləri yaxşı tanıyır, onların hətta nəfəsinin də yalanla gedib-gəldiyini çox gözəl bilir.

***- Dağıdıcı müxalifət və eləcə də onların təbliğat maşını olan saytlar polis-vətəndaş münasibətlərini pozmaq üçün hər cür iyrənc vasitələrdən istifadə edir. Onların vətəndaş-polis münasibətlərinə xələl gətirmələri nədəcə də inandırıcıdır?***

- Nə onların özləri, nə də əllərində olan reket saytlar həmin münasibətlərə xələl gətirə bilməzlər. Azərbaycan xalqı öz polisini sevir və ona güvənir. Əli Kərimli, Cəmil Həsənli kimi avantüristlərin , siyasi qolçomaqların fikri isə kimsə üçün əhəmiyyətli deyil. Təbii, barmaqla sayılacaq 3-5 qaraguruh üzvündən savayı. Onlar nə illah eləsələr də, nə qədər iftira yağdırsalar da Azərbaycan polisinin təmiz adına ləkə vura bilməyəcəklər. Polis bizim güvənc və qürur yerimizdir. Eşq olsun, Azərbaycan polisinə!

***Gülyana***

# “Polis peşəkarlığını bir daha nümayiş etdirdi”



Məlum olduğu kimi, Nazirlər Kabineti yanında operativ qərargahın Bakı, Sumqayıt, Abşeron, Gəncə və Lənkəranda şənbə və bazar günləri tətbiq etdiyi sərt karantin rejimində polisin yüksək peşəkarlıq nümayiş etdirməsi cəmiyyətdə müsbət hörmət və rəğbət yaradıb. Amma təəssüflər olsun ki, bəzi qüvvələr xüsusilə də, müxalifət hay-küy salır, polisə qarşı qara yaxma kampaniyası aparırlar. “Yurddaş” partiyasının sədri Mais Səfərli “Səs” qəzetinə açıqlamasında bildirdi ki, polisə qarşı şər-böhtan kampaniyası həyata keçirməyə çalışanlar ağa qara deməyə adət edən müxalif ünsürlərdir: “Bildiyiniz kimi, koronavirusa yoluxma səbəblərindən dövlət həftə sonu qapanma tədbirlərinə qərar verdi. Bu addım həm tibbi, həm də hüquqi baxımından əsaslıdır. Hesab edirəm ki, onu müzakirə predmetinə çevirmək düzgün deyil. Lakin təəssüflər olsun ki, sosial şəbəkələrdə bununla bağlı çox mənasız müzakirələr aparılır. Dövlətin addımlarına dəstək vermək əvəzinə, bəzi sosial şəbəkə istifadəçiləri xüsusilə də, radikal müxalifətin nümayəndələri yenidən öz amplualarından çıxış edirlər. Onlar sosial platformaları yanlış fikirlərlə doldurur, adamları çaşdırır, mənasız, heç bir elmi, hüquqi dəyərlərə söykənməyən mübarizələr aparılar. İki günlük qapanma tədbirlərinin guya heç bir əhəmiyyəti olmadığını və insan hüquqlarına zidd olduğunu iddia edən həmin o müxalifət nümayəndələri bununla təsir dairəsində olduqlarını nümayiş etdirirlər”.

M.Səfərlinin sözlərinə görə, qeyri-peşəkarların ümumiyyətlə, tibdən başı çıxmayan, anlayışı olmayanların belə mövzularda diskursiyalar aparması elə hesab edirəm ki, cəmiyyətə hörmətsizlikdir: “Demək olar ki, müxalifət nümayəndələrinin sosial şəbəkələrdə ki, mövqeyi özü qanuna zidd əməllərdir. Bizim həm milli qanunvericiliyimizdə, həm də qoşulduğumuz beynəlxalq konversiyalarda mövcud epidemoloji vəziyyətlərdə hərəkətlərin məhdudlaşdırılması zəruri, tibbi və hüquqi addım təsbit edilir. Ona görə də, hər kəs çox yaxşı başa düşür ki, insanların həyatını, sağlamlığını qorumaq hər şeydən vacibdir. Bu bizim dövlətimizin siyasətinin də təməl prinsipidir. Koronavirus ilə mübarizə hər birimizin gündəlik həyat tərzinə çevrilməlidir və biz dövlətimizlə bu məsələdə həmrəylik nümayiş etdirməliyik”.

***Gülyana***

# “İnsanların polisə daş və zibil atması bütün hallarda yol verilməzdir”

“Məlum olduğu kimi, bu gün bir çox dünya ölkələri pandemiya bəlası ilə üz-üzə qalıb. Bəşər övladı çox ciddi sınaq qarşısındadır. Bütün dövlətlər bu imtahandan üzüağ çıxmağa çalışırlar. Azərbaycan ilk gündən pandemiyaya ilə mübarizə sahəsində operativ və adekvat qərarlar qəbul etdi. Son vaxtlar Azərbaycanın bir çox dövlət qurumları gərgin rejimdə fəaliyyət göstərirlər. Onlar arasında eləlri var ki, aylardır nə gecələri var nə də gündüzləri. Neçə vaxtdır ailələri və övladları ilə kifayət qədər vaxt keçirə bilmirlər. Bunun nə qədər çətin olduğunu təsəvvür edirsinizmi? Bu dövlət qurumları arasında ən çox əziyyət çəkən, ağır yük daşıyan orqanlardan biri Daxili İşlər Nazirliyinin əməkdaşlarıdır. Dünənki hadisədən sonra Əksəriyyət polisi qınayan çıxışlar etdi, beziləri həqarət yağdırdı. Öncə qeyd edək ki, bütün məsələlər dövlətin diqqətindədir. Dövlət hər bir məsələni araşdıracaq və lazım olan qərarları qəbul edəcək”. Bunu SİA-ya millət vəkili Ceyhun Məmmədov deyib.

“Polisə zibil atanları qınayan çox oldu, yoxsa dünən baş verənləri? Polisə zibil atanları qınayan neçə status paylaşıldı? Bu gün polisi şiddətlə qınayan status yazan, konstitusiyaya və qanunlara istinad edən həmin insanlar polisə zibil və daş atanları qınayan status paylaşmışdılarmı? Bir sıra hallarda polisin bu qədər hədəfə alınmasında məqsəd nədir?

Bu gün hamımızın gözü qabağında bir sıra Qərb ölkələrində hüquq mühafizə orqanlarının insanlarla necə davrandığını görürük. İnsanları döyür, gözünü çıxarır, üzərlərinə avtomobil sürür, qətlə yetirirlər. Azərbaycan polisi isə ilk gündən insanlarla xoş rəftar etdi, maksimum səbr və nəzakət nümayiş etdirdi. Bu bir neçə gündə Azərbaycan polisini yaxını dünyasını dəyişən insanı həmin yerə aparan, ana olmağa hazırlaşan xanıma dəstək olan, quşlara və heyvanlara yem yedizdirən, çörəyi olmayana çörək alan gördük. Bunu edən Azərbaycan polisi deyildimi? Demokratik və sivil bir cəmiyyətdə yaşayırıq. Hər kəs fikrini sərbəst bildirməkdə azaddır. Ancaq biz dövlətçiliyi müdafiə etməli, dövlətin yanında olmalıyıq. İnsanların polisə daş və zibil atması bütün hallarda yol verilməzdir.

Müəyyən qüvvələrin bu hadisələri körükləməkdə və insanları qızışdırmaqda məqsədi isə dövlətçiliyi zəiflətməkdir. Hər birimiz diqqətli olmalıyıq. Bu gün bizə həmrəylik və birlik lazımdır. Polis də, müəllim də, həkim də bizimdir, düşmən deyil, sahib çıxmalıyıq. Məsuliyyət daşımadan bəyanat vermək, tənqid etmək, qərarlar çıxarmaq çox asanadır. Dövlət qurumlarının hansısa qərarına və davranışına fərqli yanaşma ola bilər. Ancaq bunun kinə və nifrətə yönləndirilməsi yolverilməzdir”.

# Prokurorluq şirkət rəhbərinin korrupsiya əməllərini ifşa edib

***Ölkəmizdə həyata keçirilən davamlı iqtisadi inkişaf siyasətinin mühüm şərtlərindən biri kimi şəffaflığın və maliyyə intizamının təmin edilməsi, aparılan iqtisadi islahatların korrupsiyaya qarşı mübarizə tədbirləri ilə dəstəklənməsi prokurorluq orqanları tərəfindən qanunla ona həvalə olunan səlahiyyətləri çərçivəsində daim diqqət mərkəzində saxlanılmaqla aidiyyəti dövlət qurumları ilə əlaqəli şəkildə korrupsiya hüquqpozmaları törətmiş vəzifəli şəxslərə qarşı ardıcıl mübarizə tədbirləri davam etdirilir.***



Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həyata keçirilməkdə olan belə tədbirlərdən biri kimi Ağcabədi rayonunun Ağabəyli kəndində fəaliyyət göstərən “BMS AQRO” Məhdud Məsuliyyətli Cəmiyyətinin rəhbərliyinin qanunsuz əməlləri nəticəsində Kənd Təsərrüfatı Nazirliyinin “Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinə külli miqdarda ziyan vurulması barədə Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə daxil olmuş material araşdırılıb.

Keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində həmin MMC-nin təsisçisi və direktoru Mülhazil Balakişiyevin digər şəxslərlə qabaqcadan əlbir olaraq 5200 baş müxtəlif cins damazlıq xırda buynuzlu mal-qaranın lizinq yolu ilə alınması ilə bağlı 2014-cü il iyulun 24-də “Aqrolizinq” ASC tərəfindən elan edilmiş tenderin qalibi olduqdan sonra ümumilikdə 3 milyon 692 min avro (həmin dövrün məzənnəsi ilə 3 milyon 581 min manat) məbləğində pul vəsaitinin köçürülməsinə nail olaraq müqavilə öhdəliyi üzrə 2 milyon 583 min avro (həmin dövrün məzənnəsi ilə 2 milyon 505 min manat) dəyərində 3600 baş xırda buynuzlu mal-qaranın gömrük rəsmiləşdirilməsindən keçirməklə ölkəyə gətirərək qeyd olunan müqavilə üzrə ASC tərəfindən ona etibar edilmiş 1 milyon 109 min avro (həmin dövrün məzənnəsi ilə 1 milyon 76 min manat) məbləğində pul vəsaitini mağdaşdırmaqla mənimsəməsinə əsaslı şübhələr müəyyən edilib.

M.Balakişiyevin əməllərində Cinayət Məcəlləsinin 179.3.2-ci (külli miqdarda mənimsəmə və ya israf etmə) maddəsinin əlamətləri olduğundan ona həmin maddə ilə ittiham elan olunmaqla barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların tam, hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb olunmaları istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# "Milli Şura"nın "zoom" iclası: qeybətxana və lağlağı mərkəzi

Deyəsən "Milli Şura"nın artıq ictimai rəydə laqlağıya çevrilmiş "zoom" iclaslarının "xəmirləri" hələ çox "su aparacaq". Daha dəqiq ifadə edərsək, aşığın sözü qurtaranda "dalay-dalay" çağırması artıq qurumun sədri Cəmil Həsənlinin dili ilə desək, "tendensiyaya" çevrilib. Hətta deyərdik ki, "zoom" iclas daha çox zoo iclas təsirini bağışlamağa başlayıb. Çünki bu iclasda siyasətdən deyil, inək və buğalardan, "tryapkalardan" və daha-daha nələrdən dəm vurulub. Özü də kim tərəfindən? Əlbəttə ki, uzun müddətdir "Milli Şura" daxilində özünün də nə danışdığını bilməyən Gültəkin Hacıbəylidən...

### "İnək-buğa" lətifələrindən doğan Gültəkin Hacıbəyli "reallğı"

Ataların bir məsəli var. Belə ki, adam çox danışanda sərsəmləməyə başlayırmış... Bu baxımdan da, "Milli Şura"nın "zoom" iclaslarına baxarkən, istər-istəməz həm də belə bir təəssürat yaranır ki, deyəsən bu xanımcığaz daxilindəki kinküdurətni gizlədə bilmədiyi üçün ictimai rəydə gülüş obyektinə çevrilir. Axı nə etsin binəva? Amma fakt budur ki, "Milli Şura"da nəinki normal siyasi mühit yaradıla bilinmir, o cümlədən həmin mühitdə ciddi yanaşmalar, təhlillər və analitik qabiliyyətlər belə "0" həddinə çatıb, hətta "0"-ın altına düşüb. Onlar özləri də bilmirlər ki, müzakirə etdikləri mövzularında hansı tərəfə yön alsınlar. Gah cinsi azlıqları təhqir edirlər, gah sonradan bu təhqirlərinə görə üzr istəyirlər, gah da öz çıxarları üçün bir-birlərinə belə qənim kəsilib çox gülünc vəziyyətlərə düçar olurlar. Eldəniz Quliyevlə Rafiq Manaflı onları elə-belə tərk etmədilər ki...

Budur "Milli Şura"nın "zoom" iclaslarının aşkar görüntüsü. Görün vəziyyət nə həddə qədər gəlib-çıxıb ki, artıq onların müzakirələri ya "inək-buğa" lətifələri ilə, gah da bilavasitə xalqı ələ salmaqla davam etməkdədir. Nəticədə isə onlar özlərini xalqdan təcrid edənlər, xalqın da onları necə inkar etməsinin şahidlərinə çevrilirlər. Əlbəttə ki, bütün bunların əsas günahlarını da özlərində axtarmalıdırlar sözügedən "siyasilər"...

### Konstruktivlər, dialoq tərəfdarları axı nəyə görə və hansı səbəblərə "Milli Şura"nın maraqlarına tabe olmalıdırlar ki..?



İndi görün ki, siyasi müxalifətin dialoq tərəfdarı olan konstruktiv partiyalarının sözügedən mühitdən yararlanmaları "Milli Şura"nın koordinasiya mərkəzinə nə qədər ağır təsir bağışlayıb ki, o boyda professor belə təhqir və həqarətlərini gizlədə bilməyərək, konstruktivləri "traypka" (?!) adlandırıb. Nədir ki, müxalifətçi olmalarına rəğmən, ümumi maraqlar kontekstindən çıxış etmək istəyən partiyalar bunların anti-dövlətçilik, anti-milli maraqlarına cavab vermir. Sual oluna bilər ki, əcəba, axı "Milli Şura"dakıların hansı keyfiyyətlərinə (keyfiyyətsizliklərinə-R.R.) görə düşərgənin digər cinahı onların dedikləri ilə oturub-durmalıdırlar? Xalqı, milləti təhqir etdiklərinəmi görə? Yaxud, Rahim Hacıyevin hansısa xarici anti-azərbaycançı ünsürün milli düşüncə tərzimizi ələ salan və "Azərbaycan xalqı iddialı, intizamsız, çox danışan və məsuliyyətsizdir" tipli sərsəm ibarəsini gətirdiyinə və həqarət etdiyinəmi görəmi?! Yəqin ki, yaxınlarda dialoqa dəstək verən müxalifət partiyalarının öz ayaqqabılarını qoca professorun "şura" adlı "tryapka" ilə siləcəkləri gün də uzaqda deyil. Necə deyərlər, dünya fırlanır və hər şey anidən tərsinə olur, kimin-kiminlə öz ayaqqabısını siləcəyini də zaman göstərəcək...

Hə, G.Hacıbəylinin dərhal bu "ibarəyə" "oooyyy nə gözəl xarakterizə ediblər" kimi tərif yağdırması da bəzi məqamları üzə çıxarır. Məsələn o bu vasitə ilə R.Hacıyevə eyham vurub ki, xalqı hədəfə almaları, milli heysiyyatları ələ salmalardan o da həzz alır və bu həzzə görə xarici maliyyə donorları onlara üstəlik pul-para da ödəməlidir. Axı Azərbaycanda oturub xalqı təhqir etmək hər kəsin "hünəri" ola bilməz, bunu yalnız "Milli Şura"nın "başbilənləri" edə bilərlər ki, öz uğursuzluqlarını dərhal xalqın üzərinə ataraq yaxalarını kənara çəkirlər. Amma...

Amma əslində məsələyə digər tərəfdən yanaşarsaq artıq əminliklə deyə bilərik ki, bu bir qürubdur, özü də siyasi qürub da deyil, çünki orada siyasətdən və siyasilərdən başqa nə desən, kim desən var. Bu, qaragüruhçuluğun, xəyanətin və dəyərsizliyin qürubudur ki, müşahidə edib, nəticələr çıxarırıq!

### Kor-kor, gör-gördür ki, bunlar lağlağı edib, mırt vurmaqdan başqa heç nə bacarmırlar

Yeri gəlmişkən, AXCP sədri, "Milli Şura"nın yedək dirijoru olan Əli Kərimlinin "zoom" iclasına poverbankla qatılması da bir ayrı aləmiymiş əslində. Halbuki, "internet blokadasındayam" deyib, artıq uzun müddətdir feysbukda "admin heyəti" adından çənə döyür, yaxa cırır bu adam. Yəqin AŞPA-da da Ə.Kərimlinin "məzlumkeşliyi", "əzablı günləri" ilə bağlı "narahat" olmağa başlayıblar və gecəgündüz "zoom" iclası izləyirlər ki, görəsən hansı ciddi mövzulardan danışacaqlar. Amma heç bir ciddiyyət, reallıq görmürlər, ona görə də Ə.Kərimlinin əziyyəti yenə də qalır özünə...

Yəni adama deyərlər ki, sənin internetin yoxdursa, telefonunda məhdudiyyətlər mövcuddursa, poverbankla "zaryadka" yğıb iclasa qatılmaq nə demək, "internetim yoxdur" nə deməк..? Nə isə, görək axecepeçilərin sədri sabah-birigün hansı "arqrumentlərini" açıqlayacaq faktların qarşısında.

Qaldı ki, "zoom" toplantının cəmiyyətə yararsızlığına, artıq kor-kor, gör-gördür ki, bunlar lağlağı edib, mırt vurmaqdan başqa heç nə bacarmırar. Bacarmadıqlarına görə də gündə bir oyunları çıxır ortalığa. Sonra da bar-bar bağırıb, üzgözlərini ülgücləyirlər ki, hakimiyyət onların siyasi fəaliyyətlərinin qarşısını müxtəlif üsullarla alır və s. Vallahi də, billahi də hakimiyyətin bunlarla heç bir işi yoxdur, çünki hakimiyyət üçün bu tiplər ümumiyyətlə nə siyasi varlıq, nə də siyasi sima olaraq mövcud deyillər. Ona görə də, daha yaxşı olardı ki, elə bu minvalla da toplantılarını davam etdirib, özlərini daha çox ifşa etsinlər. İfşa olunduqca, hədəfə aldıqları xalq, sağlam düşüncəli ictimai-siyasi rəy də onların "insanlıq dərəcəsi" şkalalarının nə qədər aşağıya düşdüyünün daha çox şahidlərinə çevriləcəklər.

**Rövşən RƏSULOV**



RƏFİQƏ

# Cəmil Həsənli nəhayət ki, öz "dəyərini" anlaya bildi...

Bu günlərdə jurnalist Eynulla Fətullayevin sosial şəbəkədə AXCP sədri Əli Kərimli ilə bağlı yazısını oxuyarkən dedikləri ilə tam şərik olduğumu bildirdim. E.Fəttullayev yazır ki, "siyasətçi ikiüzlü tərzdə yalan danışa bilərmi?! Yalan danışmalı, ya danışmamalı - budur bütün məsələ. Dünyamız qədər əbədi olan bu dilemma mənəviyyatçılarla makiavelliçiləri az qala keçilməz barrikadalar kimi ayırıb. Lakin biz hamımız, demək olar ki, siyasətdə makiavelliçilərin çoxluğu ilə barışmışıq, teatr səhnəsindəki bütün aktyorları ya şir, ya da tülkü kimi qəbul edirik. Azərbaycanın siyasi səhnəsində məğrur və əyilməz şirlərdən daha çox kürən və hiyləgər tülkülər var-gəl edir. Makiavelliyə görə, nağıllarda və elə təbiətdə olduğu kimi, tülkü siyasətçi kişiliyi və şərəfi deyil, qəddar yalanı simvolizə edir".

Bəli, bu gün satqın Əli Kərimli, Cəmil Həsənli, İsa Qəmbər, Arif Hacılı, Gültəkin Hacıbəyli, Sevinc Osmanqızı və bu kimi ikiüzlü kürən, hiyləgər, şərəfsiz, əxlaqsız, mənəviyyatsız makiavelliçiləri var. Və görününr son vaxtlar kim olduqlarını anlayırlar.

Elə bu günlərdə "Milli Şura"nın sədri Cəmil Həsənli hökumətlə dialoqa gedən müxalifətçilərə "tryapka" deyərək təhqir etməsindən sonra bir söz deməyə ehtiyac duymadığımı fikirləşdim. Ancaq sonradan fikrimdən çəkindim. Çünki dünən kimi, özlərini "lider" sayan bu satqınlar hətta, özlərini "görkəmli, tarixi şəxsiyyətlərə" bənzədirdilər və onların kimliyini sübut edən faktlara da etiraz edirdilər. Nəhayət ki, C.Həsənlinin dediyi kimi, müxalifət düşərgəsinin "tryapka"larıdır. C.Həsənli də belə deyi: "İndi dialoqa gedənlər elə "tryapka"ya çevrilib ki, o "tryapka" ilə heç ayaqqabı da silmək olmaz".

Hər zaman belə olub, indi də belədir. Dünyanı ağuşuna alan koronavirusa qarşı mübarizmə aparan bu tryapkalar dövlətin koronavirusla mübarizədə bir sıra və ardıcıl, önəmli addımlar atması və nəticədə xalqımızın öz dövlət başçısı ətrafında həmrəylik göstərməsinə qısqanclıqla yanaşaraq sadəcə erməni dəyirmanına su tökməklə məşğul olublar. Ən nifrət doğuran isə, dövlətin koronavirusla mübarizədə atdığı ardıcıl və önəmli addımlardan yerində qıvrıla-qıvrıla qalan C.Həsənlinin ardıcıl olaraq sosial şəbəkələrdən sərsəm fikirlər səsləndirərək "evdə qalmaqla" problemlər həll olunmur. Bunun çıxış yolu mitinqlərdir" deməsi, həqtqətən də "tryapka" olduqlarını sübut edirdi və bu gün bu faktoru özləri də təsdiqlədi. Doğurdan da, insanda abır-həya yaxşı şeydir. İnsan özünün ləyaqətinə hörmət etməlidir. Ancaq C.Həsənli kimilər "insan" ola bilməz.

Fransız psixoloq Julyer iddia edir ki, insanlarda satqınçılıq və xəyanət simptomları bir dəfə formalaşırsa, bu sistemli şəkildə davamlı olur və ətraf mühitə ikrah yaranır. Bu məntiqlə yanaşsaq aydın olur ki, bu gün müxalifət, o cümlədən C.Həsənli kimilə illərdi ki, eyni mühitdə qalıb, zaman-zaman bir-birilərinə xəyanət ediblər və demək olar ki, artıq bir periodiklik yaranıb və bu koronavirusdan da güclü virusa çevriliblər. Nəticə nə oldu?. Sonda ayaqqabıları belə silməyə lazım olmayan tryapka.

Bax, budur həqiqət. Ona görə də, Azərbaycan xalqı koronavirus epidemiyasından çıxdıqdan sonra dövlətin, millətin maraqlarını heçə sayan Ə.Kərimli-C.Həsənli kimi anti-milli ünsürlərin şər və böhtanlarını bağışlamayacaq və sərt ölçü götürmələrini, cəmiyyətdən təcrid olunmalarını tələb edəcək. Və bu haqq-hesab isə çox ağır olacaq.

# "Cəmil Həsənli "tryapka" dedikdə bunları nəzərdə tutur?"

***"Milli Şuranın onlayn iclasının növbəti görüntüləri yayılıb. Bu dəfəki görüntülər əvvəlkilərindən mahiyyət etibarilə fərqlənmir. Hakimiyyət sevdalıları yenə də kimlərisə aşağılamaq xəttinə sadiq qalıblar. Şuranın başbiləni Cəmil Həsənli hakimiyyətlə dialoqa gedənləri professorsyağı "tryapka" adlandırıb.***

Bu onun "zəngin leksikonunun" bir göstəricisidir... Amma məsələnin bu tərəfini bir kənara qoyaq. Kimlərdir bu gün hakimiyyətin dialoq təklifinə müsbət yanaşanlar? Real Partiyası, Ümid Partiyası, ADP, AXP sədri Pənah Hüseyn, bir sözlə Milli Şuradan kənarda olan partiyaları demək olar ki, hamısı buna müsbət reaksiya verib, ilkin təmaslar gerçəkləşib. Cəmil Həsənli "tryapka" dedikdə bunları nəzərdə tutur? Milli Şura başbiləninə cavab verməк dialoqa gedənlərin öz işidir". Bunu SİA-ya Əməkdar jurnalist Elman Babayev deyib.




Onun sözlərinə görə, tənqidedilməli cəhət odur ki, hakimiyyətə alternativ qüvvə kimi özünü cəmiyyətə sırıyanların danışıq tərzi söyüş və təhqirlərdən ibarətdir: "Ard-ardınca yayılan görüntülərdə ancaq qeybət, söyüş, təhqir ana xətt təşkil edir. Heç bir ciddi müzakirə ortalıqda yoxdur. Eks millət vəkili Gültəkin Hacıbəylinin bu dəfə danışdığı "İnəyin erkəyi" lətifəsi isə əlavə şərhə ehtiyac yeri qoymur...

Son vaxtlar aparılan dialoqu gözdən salmaq üçün Milli Şura ilk gündən böhtan kampaniyasın strat verib. Ölkədə həyata keçirilən islahatların davamı olan dialoqdan min bir bəhanə ilə qaçanların səviyyəsini müşahidə etdikdə, onların əslində bu diloqun mahiyyətindən uzaq olduqları görünür. Başlanan proses sivil bir müxalifətçilik, siyasi mədəniyyət formalaşdıran, hər iki düşərgə üçün səmərəli siyasi mübarizə modelini ortaya qoyur. Reallıq ondan ibarətdir ki, bugünkü şərtlər altında münasibətlərin düşmənçilik səviyyəsində stabil qalması mümkünsüzdür. İqtidar-müxalifət münasibətləri qorxulu opponentlikdən faydalı opponentliyə keçidin fundamentini atmaq potensialına malikdir.

Hazırda prosesdən özünü kənarda saxlayan yeganə AXCP sədri Əli Kərimli və onun Şurasıdır. Bu dəstə min bir bəhanə ilə diloaqda iştirak etmək niyyətində olmadığını bəyan etməklə siyasi gərginliyin saxlanmasında xüsusi maraq güddüyünü ortaya qoymuş olub. İndi bu görüntülərə baxdıqca yenidən əmin oluruq ki, bir partiyanın və ətrafındakı lətifə həvəskarlarının kənarda qalması prosesə kölgə sala bilməz. Başladılan dialoqun davamlı xarakter alması Azərbaycan cəmiyyəti üçün olduqca faydalıdır.

Nəhayət, Azərbaycan müxalifəti sözün həqiqi mənasında radikal addımlarına embarqo qoyub, mübarizəni savad, qabiliyyət müstəvisində aparmağa başlamalıdır. İctimai diqqəti ifrat tənqidlə, yerli-yersiz kütləvi aksiyalarla, kompromat qovluğu hazırlamaqla deyil, yüksək mədəni davranışla, ağıl səviyyəsi ilə cəlb etməyin mümkünlüyünü dərk etməlidir. Müxalifət dərk etməlidir ki, hakimiyyət dəyişikliyində güc metodlarına, rəngli inqilablara ümid etmək tamamilə yanlış mövqedir.

Hakimiyyətlə dialoq qurmaq və əməkdaşlığa getmək ənənəsini yaratmaq üçün müxalifət bir tərəfdən, hakim qüvvənin fəaliyyətinin ayrı-ayrı məqamlarına yardımçı olmaq, uğurları təsdiqləmək ənənəsinin qoyulmasına, eyni zamanda hakimiyyətlə konfidensial iş birliyi kimi çirkin mənzərənin yerinə, leqal, qanuni əməkdaşlıq mexanizmlərinin gətirilməsi yoluna üstünlük verməlidir. Qısası, dialoq hər zaman lazımdır və mümkündür; dövlətə və xalqa xidmət edən dialoq həm hakimiyyəti güclü edir, həm də müxalifəti. Məhz bu səbəbdən əməkdaşlıq masası hər iki cinah üçün öz cazibəsini hər zaman qoruyub saxlamağa məhkumdur!".

**Ceyhun Rasimoğlu**

# Gürcü kilsələrinin erməniləşdirilməsi

***Erməni təşkilatlarinin maliyyələşdirdiyi bütün erməni və muzdlu qeyri-erməni “alimləri” və ideoloqları Gürcüstanın milli varlığının bütün sahələrini həyasızcasına erməniləşdirməyə çalışırlar:***

guya Gürcüstandakı bütün maddi mədəni abidələr, kilsələr, mahnılar,elmi, tarixi ermənilərindir;

guya gürcü çarlarının nəsli, dövlətçiliı və görkəmli hərbi-siyasi şəxsiyyətlərin əksəriyyəti erməni mənşəlidir;

guya gürcü əlifbasını ermənilər yaratmış, gürcü dili erməni dilindən ayrılmışdır.

Onu da qeyd etməyi lazım bilirik ki, bəzi erməni “alimləri”, Romanın dini incəsənətinin və qotiklərin yaranmasında “erməni memarlığının böyük və həlledici rol oynamış bir xüsusi fenomen olduğunu” hesab edirlər. Onların fikrincə, İtaliyada, Fransada, Almaniyada və Avropanın digər şəhərlərində “erməni memarlığının təsiri” açıq-aydın şəkildə görünür. Ermənilər tərəfindən belə bir sualın olması isə tamamilə cəfəng görünür:

“Nə üçün Da Vinçinin Ermənistana səyahəti faktı bəzi Qərb və xüsusilə də İtalyan tarixçiləri tərəfindən təkzib olunur? Ona görə yox ki, onlar Leonardonun səfərini inkar edərək, ona erməni memarlığının da müəyyən təsirinin olmasını inkar etməyə çalışırlar?” A.Todadze ermənilərin belə sərsəmliklərini ifşa edərək yazır: “Buna görə də təəccüblü deyildir ki, onlar guya Gürcüstanda 650-dən çox erməni kilsəsinin, o cümlədən gürcü memarlığının şah əsərlərinin - Msxetanın Cavarisinin, Oşkinin, Xaxulinin, İşxaninin, Şatberdinin və bir çox başqa ölməz gürcü abidələrinin ermənilərə aid olduğunu elan edirlər, lakin memarlıq baxımından bu abidələrin bütün bəzək əşyalarının, istər heykəltaraşlıq relyefinin, ornamentinin və ya divar rəsmlərinin Gürcüstan mədəniyyətinin, gürcü memarlığının üzvi bir hissəsini təmsil etməsinə baxmayaraq, bu abidələrin bir çox divarlarında rast gəlinən gürcü yazısının - “asomtavruli”nin olduğu qeyd olunmur.

Kilsənin bu cür vəhşicəsinə məhv edilməsinin qarşısını almaq üçün Gürcüstanın Mədəni İrsinin Qorunması üzrə Milli Agentlik, Axalkələk bələdiyyəsinin Korxi kəndində yerləşən Müqəddəs Stefan kilsəsinin dağıdılmasının qarşısını almaq üçün kilsəni öz himayəsi altına aldı. Kilsənin himayə altına alınması 2017-ci il iyunun 30-da Mədəniyyət abidələrinin müdafiəsi üzrə Milli Agentliyin direktoru Nikoloz Antidzenin tapşırığı ilə yerinə yetirildi.

Müqəddəs Stefan kilsəsi kəndin şimal-şərq hissəsində yerləşir. XIX əsrin sonunda tikilmişdir. Daha əvvəllər kilsənin şərq tərəfində yerləşən zəng qülləsinin yeri dəyişdirilmişdir. Şərqə tərəf olan divarların yaxınlığında orta əsrlərin təsvirləri olan qəbir daşları tikilmişdir.

Kilsənin cənub-qərb küncündə guya kilsənin ermənilərə aid olmasına dair saxta yazı qeyd olunmuşdur. Kilsə haqqında olan bu məlumatlar Gürcüstanın Mədəni İrs Agentliyinin saytında qeyd olunmuşdur. Kilsədəki saxta erməni yazısı guya 1890-cı ilə əsaslanır və beləliklə də ermənilər kilsəni sıfırdan qurduqlarını iddia etməyə çalışaraq qədim gürcü kilsəsini tutmadıqlarını iddia edirlər. Lakin ermənilər, kilsəni mənimsəmə cəhdlərinə baxmayaraq Gürcüstanın Mədəni İrs Agentliyinin mütəxəssislərini aldatmağı bacarmadılar. Çünki mütəxəssislər dərhal kilsənin təməlinin orta əsrlərə aid olduğunu, əvvəllər bu yerdə yaşayan qədim gürcü kilsəsinin tikinti elementlərinin ermənilər tərəfindən qəsdən məhv edildiyini artıq qeyd etmişlər. Korxi kəndindəki gürcü kilsəsinin erməni mənşəli olmasını isbat etməyin mümkün olmadığını başa düşdükləri üçün erməni vandalları kilsənin fundamentinə qədər bərpa adı altında Gürcüstana aid olan bütün izləri məhv etmişlər.

Əslində Gürcüstan hakimiyyətinin Gürcüstan ərazisindəki erməni qəsəbələrində yerləşən bütün gürcü məbədlərini qoruması heç də gec deyil. Əgər bu istiqamətdə müvafiq tədbirlər görülməsə onda gürcü mədəniyyətinin qiymətli abidələri eləcə də gürcü xalqının məbədləri, Korxi kəndində olduğu kimi ermənilərin tərəfindən vəhşicəsinə məhv ediləcək. Ermənilərin isə iddia etdikləri gürcü kilsələri hər an dağılma təhlükəsi ilə qarşı-qarşıyadır. XIX-XX əsrlərdə Gürcüstanda Qriqorian kilsəsinin fəaliyyətinin əsas istiqamətlərindən biri gürcü kilsələrində və monastırlarında köhnə Lapid yazılarının və gürcü nişanlarının məhv edilməsi idi ki, bu da ermənilərə gürcü kilsələrini və digər mədəniyyət abidələrini mənimsəməyə imkan verirdi. Tbilisidə, Samtsxe-Cavaxetidə, Kvemo-Kartlidə, Samaçabloda və Gürcüstanın digər rayonlarında bir çox məbədlər olmuşdur. Hətta ərəblərin hakimiyyəti dövründə belə ermənilərin Gürcüstanı xilas etməsinə dair hər hansı bir hadisə baş verməmişdir. Onlar dəmir çubuqlarla məbədləri dağıdaraq simvolları məhv etmişlər.

Samtsxe-Cavaxetiyada səfərdə olan məşhur tarixçi Georgi Boçoridze Yakov Balaxaşvilidən öyrənmişdi ki, erməni məktəbinin divarlarında Skaltbila kəndinə Fetobendən gətirilmiş çarın və kraliçanın rəsmləri olmaqla yanaşı daş üstündə yazıları da yazılmışdır. Alim, məktəb rəhbərləri olan E. Simonyan və pedaqoq A. Abramyanla görüşərək onlara səfərlərinin səbəblərini izah etməsinə baxmayaraq soyuq bir şəkildə rədd cavabı almışdır. Samtsxe-Cavaxeti ermənilərinin gürcü tarixi abidələrinə olan mənfi münasibəti - bütün gürcü nişanlarını silmələri və məhv etmələri, sonra da bu abidələri mənimsəmələrinə dair məqamları Q. Boçoridzenin xatirələrindən aydın şəkildə görünür.

1990-cı ilin yayında Marneuli rayonunun Axkerpi kəndində Lançava şəhərinin rəhbərliyi altında gürcü polisinin batalyonu durmuşdu. Q. Lançava səhər bel çantası ilə hansısa kişinin kəndin yanında yerləşən köhnə gürcü bazilikasına getməsinə və axşama qədər orada qalmasına dair məlumat almışdı. Q. Lançava maraqlanaraq oraya getdi. Bu zaman orada qazılmış bazilikanın bünövrəsini gördü. Bir erməni isə xəndəkdə dayanaraq bu daşın üzərinə erməni yazısını həkk etdirirdi. Yaşlı bir gürcü qadını Lançavaya şikayətlənərək bunun birinci hal olmadığını qeyd etdi. Belə ki bura gələn ermənilər tez-tez qədim gürcü kilsələrinin daşlarında erməni yazılarını yazırlar).

1987-ci ildə ermənilər gürcü məbədinə - Xucabi monastırına iddia qaldırmışdılar. Guya bu ərazidə qədim zamanlardan bəri ermənilər yaşamışlar və bu kilsə ermənilərə məxsusdur.

Ayrılmış xüsusi komissiya, Gürcüstan və Ermənistanda aşkar edilmiş sənədlər əsasında təsdiq etdi ki, abidə Tamara dövründə tikilmişdir və Gürcüstan sərhədinin hüdudlarında yerləşir. 1918-ci ilin dekabrında ermənilər ingilislərlə Loru tərəfini tutduqdan sonra Ermənistanın sərhədləri Xucabet monastrına çox yaxın idi. 1935-ci ildə ermənilər Xucabini vəhşicəsinə talan edərək oradakı rus rahiblərini monastrdan qovdular. Məşhur Xucabi monastırının, həqiqətən də, gürcülərə aid olmasına dair mətbuatda həqiqəti əks etdirən çoxlu sayda məqalələr dərc olunmuşdur, lakin ermənilər isə bunu da mənimsəmişlər. Bu faktı onlar 1986-1988-ci illərdə İrəvanda erməni dilində dərc edilmiş “Ermənistanın toponimlərinin və onun sərhədyanı ərazilərinin lüğəti”ndə qeydə almışlar.

Ermənilər 15 fevral 1995-ci ildə açılmış Tbilisinin “Müjdə” kilsəsi uğrunda mübahisə edirlər”. Kilsə xidməti burada cəmi iki dəfə keçirilmişdi, sonra isə kilsə ermənilərin əsassız iddialarına görə bağlandı.

Ermənilər Gürcüstanın çoxlu sayda kilsələrini erməniləşdirmişlər. Buna misal olaraq XV əsrdə tikilmiş Tbilisinin “Fetxain monastrı olan Betlemi” misal göstərmək olar ki bu monastrı da ermənilər Fetxain adlandırırdılar. Əslində Fetxain adlandırılan monastr 1740-cı ildə knyaz Qivi Amilaxvari tərəfindən təmir olunan qədim gürcü pravoslav kilsəsi idi.

XII əsrdə Tbilisidə tikilmiş böyük kilsəni ermənilər mənimsəyərək ona “Subgeork” adını vermişdilər. XV əsrdə “Xaçın atası”, günbəzləri olan “Qırx şəhid” və Metex monastrlarına erməni adları vermişlər.

Sxinvalidə keçirilən antigürcü mitinqində Osetiya separatçılarını dəstəkləyən erməni əhalisinin bir qismi prinsipial olaraq 1718-ci ildə VI Vaxtanqın hakimiyyəti dövründə tikilən “Boqomater” monastrının qriqoryan kilsəsi olmasını qeyd edərək dərhal geri verilməsini tələb edirdilər. Əvvəllər onlar erməni katalikosu I Vazgenə müraciət etsələr də bu təxribat heç bir nəticə vermədi.

“Nə üçün Da Vinçinin Ermənistana səyahəti faktı bəzi Qərb və xüsusilə də İtalyan tarixçiləri tərəfindən təkzib olunur? Ona görə yox ki, onlar Leonardonun səfərini inkar edərək, ona erməni memarlığının da müəyyən təsirinin olmasını inkar etməyə çalışırlar?” A.Todadze ermənilərin belə sərsəmliklərini ifşa edərək yazır: “Buna görə də təəccüblü deyildir ki, onlar guya Gürcüstanda 650-dən çox erməni kilsəsinin, o cümlədən gürcü memarlığının şah əsərlərinin - Msxetanın Cavarisinin, Oşkinin, Xaxulinin, İşxaninin, Şatberdinin və bir çox başqa ölməz gürcü abidələrinin ermənilərə aid olduğunu elan edirlər, lakin memarlıq baxımından bu abidələrin bütün bəzək əşyalarının, istər heykəltaraşlıq relyefinin, ornamentinin və ya divar rəsmlərinin Gürcüstan mədəniyyətinin, gürcü memarlığının üzvi bir hissəsini təmsil etməsinə baxmayaraq, bu abidələrin bir çox divarlarında rast gəlinən gürcü yazısının - “asomtavruli”nin olduğu qeyd olunmur

***Vahid Ömərov***
***AMEA Qafqazşünaslıq İnstitutunun şöbə müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

## Son səhifə

10 iyun

## PSJ Tiaqo Silvaya qapını göstərdi!



**Fransanın PSJ futbol klubu braziliyalı müdafiəçisi Tiaqo Silva ilə yeni müqavilə imzalamayacaq. Bbu barədə “L’Equipe” nəşri məlumat yayıb. Mənbənin məlumatına görə, Paris təmsilçisinin müqaviləni uzatmayacağı xəbərini futbolçuya klubun idman direktoru Leonardo bildirib. T.Silvanın hazırkı müqaviləsinin müddəti iyunun 30-da başa çatacaq.**

Paris klubunda kapitan sarğısını daşıyan Tiaqo Silva 2012-ci ildə “Milan” klubundan transfer edilib. O, ötən səkkiz ildə altı dəfə Fransa çempionatının və Super Kubokunun, dörd dəfə isə ölkə kubokunun qalibi olub. Braziliya millisinin heyətində 88 oyunda meydana çıxan futbolçu 7 qol vurub. Tiaqo Silva milli komanda ilə Konfederasiya Kubokunun (2013) və Amerika Kubokunun (2019) qalibi adını qazanıb.

## Həbib Nurməhəmmədov amerikalı boksçu ilə sentyabrda döyüşəcək




**Mütləq Döyüş Çempionatının (UFC) çempionu rusiyalı Həbib Nurməhəmmədov və amerikalı Castin Getji arasında döyüş bu ilin sentyabrında keçiriləcək. TASS agentliyi xəbər verir ki, bu barədə rusiyalı döyüşçünün meneceri Rizvan Maqomedov məlumat verib. O, qeyd edib ki, turnirlərin sayı hələ təsdiqlənmədiyi üçün döyüşün yeri və dəqiq tarixi məlum deyil.**

Yüngül çəkidə UFC-nin müvəqqəti çempionu C.Getji karyerası ərzində keçirdiyi 22 döyüşdə qalib gəlib, 2 qarşılaşmada məğlub olub. Otuz bir yaşlı H.Nurməhəmmədov isə qarışıq döyüş növlərində indiyədək keçirdiyi 28 döyüşün hamısında qələbə qazanıb.

## Gizli xəstəlik peyda olub: 979 nəfər ölüb

Qərbi Afrika ölkəsi Nigeriyanın Kano əyalətində 5 həftə ərzində gizli xəstəlik səbəbilə 979 nəfər dünyasını dəyişib. SİA-nın məlumatına görə, ölkənin Səhiyyə naziri Osaki Ehanir mətbuat konfransında bu barədə danışıb. Onun sözlərinə görə, ölənlər arasında səhiyyə işçiləri və dövlət qurumlarının əməkdaşları da var. Ehanir bildirib ki, əyalətdə 3 gün ərzində 150 nəfərin ölməsindən sonra bölgəyə briqada göndərilib. Araşdırma nəticəsində məlum olub ki, ölənlərin əksər hissəsi 65 yaşdan yuxarı şəxslərdir. Onların yalnız 50%-də koronavirus aşkarlanıb.



Qeyd edək ki, Kano hökuməti daha öncə gizli xəstəliyin COVİD-19 olmadığını bildirmişdi. Ölümlərin hipertoniya, diabet, meningit və qızdırma kimi müxtəlif xəstəliklər səbəbilə baş verdiyi qey olunmuşdu. Hökumət epidemiyanın qarşısını almaq üçün əyalətdə küçəyə çıxma qadağası elan etmişdi. Son rəqəmlərə görə, Nigeriyada 12 min 486 nəfər koronavirusa yoluxub, 354 nəfər ölüb.

## Rembrandtın avtoportreti 20 milyon dollara satılır

**Holland rəssamlığının qızıl dövrünün ən böyük nümayəndəsi Rembrandt Harmens van Reynin (1606-1669) sərt avtoportreti Sotheby’s hərrac evində 15-20 milyon dollara satışa çıxarılıb. TASS agentliyinin məlumatında deyilir ki, özünü 26 yaşında təsvir edən rəssam bu işi ən xoşbəxt və yaradıcılığının qaynar illərində yaradıb.**



O, Amsterdama köçdükdən sonra peşəkar bir rəssam kimi populyarlıq qazanmaq üçün əlindən gələni edib. Sotheby’s evinin qədim peşəkarlar bölməsinin rəhbəri Corc Qordon bildirib ki, sürətli bir şəkildə çəkilmiş avtoportret qeyri-adi şəkildə sərt bir üslubda tərtib edilib. Əsərdə qara geyimli və papaqlı, büzməli dəyirmi yaxası olan bir gənc təsvir olunub. Rəssam mütəxəssislərin fikrincə bu əsərdən öz qabiliyyətini varlı müştərilərə nümayiş etdirmək və ya iki il sonra evləndiyi bir qadının qohumlarını təəssüratlandırmaq üçün vizit kartı kimi istifadə edə bilərdi.

## “En son babalar duyar”ın aktrisası vəfat etdi

Məşhur türkiyəli aktrisa Ayşegül Atik 72 yaşında vəfat edib. SİA-nın türk mətbuatına istinadən verdiyi xəbərə görə, Bodrumda yaşayan sənətçi ötən gün infarkt keçirib. Həmkarı Ali Atiklə ailə olan və iki övlad dünyaya gətirən aktrisanın ölüm xəbərini yaxın dostu sosial şəbəkədə yazıb. O bildirib ki, Ayşegül uzun müddətdir xəstə idi və müalicə alırdı. Qeyd edək ki, Ayşegül tamaşaçılara “Şen yuva”, “En son babalar duyar” kimi seriallardan tanışdır.



## İtaliyada 59 mafiya üzvü həbs olundu



İtaliya karabinyerləri mafiya fəaliyyəti ittihamı ilə 59 nəfəri həbs edib. Əməliyyat Neapolun Kamorra cinayətkar təşkilatının üç klanına zərbə vurub.

AZƏRTAC “la Repubblica” qəzetinə istinadla xəbər verir ki, təhqiqat sahibkarlıq və siyasət sahəsində sıx əməkdaşlıq edən şəbəkəni ifşa edib. Həbs olunan şəxslər mafiya təşkilatı qurmaqda, seçkilərin keçirilməsi zamanı korrupsiya hallarına yol vermekdə, zorla və şantajla pul qoparmaqda, həmçinin hərraclarda dələduzluqla məşğul olmaqda ittiham edilirlər. Onların arasında Silvio Berluskoninin “İrəli, İtaliya” partiyasından olan senator Luici Çezaronun üç qardaşı da var. Kamorra təşkilatının digər təhqiqatında adları keçən qardaşlardan ikisi ev dustağı edilib, digəri - Neapol ətrafındakı tibb mərkəzlərindən birinin sahibi isə həbs olunub.

## Keçmiş məhkumdan “Makarov” tapançası götürülüb

Polis əməkdaşları əllərdə qanunsuz saxlanılan silah-sursatın aşkarlanaraq götürülməsi məqsədilə növbəti əməliyyat tədbiri keçiriblər.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Nəsimi Rayon Polis İdarəsinin 19-cu polis şöbəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Sumqayıt şəhər sakini, əvvəllər məhkum olunmuş İ.İsmayılovdan nömrəsi silinmiş “Makarov” markalı tapança, 6 patron və 1 patron darağı aşkar edilərək götürülüb. Faktla bağlı araşdırma aparılır.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600